**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**ÜZEYİR HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI**

*Əlyazma hüququnda*

**ƏHSƏN MİKAYIL oğlu RƏHMANLI**

# AZƏRBAYCANDA QARMON İFAÇILIĞI SƏNƏTİ VƏ ONUN TƏDRİSİ

6213.01 – Musiqi sənəti

Sənətşünaslıq üzrə fəlsəfə doktoru alimlik dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2017**

*Dissertasiya işi Azərbaycan Milli Konservatoriyasının "Milli musiqinin tarixi və nəzəriyyəsi" kafedrasında yerinə yetirilmişdir.*

**Elmi rəhbər:** **Səadət Abutalıb qızı Abdullayeva**
sənətşünaslıq üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Abbasqulu İsmayıl oğlu Nəcəfzadə**
sənətşünaslıq üzrə elmlər doktoru, professor

**Maya Aydın qızı Qafarova**
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat:** **Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Musiqi tarixi və nəzəriyyəsi" kafedrası**

Müdafiə __ sentyabr 2017-ci ildə saat 12:00-da Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç. 98.

Dissertasiya ilə Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat ____ avqust 2017-ci ildə göndərilmişdir.

Dissertasiya şurasının elmi katibi:
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent **H.V.Məmmədova**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Qədim tarixə, çoxəsrlik mədəniyyətə, zəngin ənənələrə malik olan Azərbaycanın musiqisinin dərin kökləri vardır. Arxeoloji qazıntılar və etnoqrafik tədqiqatlar nəticəsində qədim musiqi alətlərimiz barədə maraqlı məlumatlar əldə edilmişdir. Məlum olmuşdur ki, b.e.ə. VI minillikdə xalq çalğı alətləri ansamblları fəaliyyət göstərmiş, ney, zurna, çəng, kərnay, balaban və digər alətlərdən istifadə edilmişdir.

Azərbaycan musiqisinin köklərini araşdıran, ənənələrini öyrənən, tarixini yazan musiqişünas alimlər öhdəliklərinə götürdükləri vəzifəni layiqincə yerinə yetirmişlər. Alimlərin səyi nəticəsində aparılan ciddi, çoxsaylı, hərtərəfli, əhatəli, səmərəli tədqiqatlar Azərbaycan xalq musiqisinin yarandığı dövrdən üzü bəri gələrək mərhələlərlə yaranmış inkişafı yazılı mənbələrdə öz əksini tapmışdır. Musiqi aləminə dair araşdırmalar bu gün də davam edir, bir-birindən maraqlı və qiymətli nəticələr əldə olunur. Son dövrlərdəki uğurlar göz önündədir və bir daha sübut edir ki, Azərbaycanın musiqişünaslıq elmi yeni mərhələyə qədəm qoyaraq yeni-yeni böyük nailiyyətlər qazanmaqdadır.

Təsir gücünə malik zəngin Azərbaycan muğamı, dəramədlər, rənglər, təsniflər, diringilər, dastan janrı, aşıq havaları, rəqs melodiyaları - yaradılan və yaşadılan musiqi nümunələrimiz nadir sənət inciləridir. Bu inciləri xalqımıza tanıdan, sevdirən, yaşadan ustadlar, məşhur sənət adamları həmişə və hər an diqqət mərkəzində olmuşlar. Muşiqişünaslar belə sənətkarların həyat və fəaliyyətlərini, sənətinin məzmununu, mahiyyətini, bədii üslub xüsusiyyətlərini, yaradıcılıq dəyərini araşdırmış və musiqi mədəniyyəti tariximizin səhifələrinə yazmışlar.

Musiqini mükəmməl şəkildə ifa etmək üçün xalqımızın istedadlı övladlarının yaratdığı musiqi alətləri barədə maraqlı məlumatların üzə çıxarılması, hər bir alətin ifa imkanlarının, texniki xüsusiyyətlərinin öyrənilməsi üçün elmi-tədqiqat işləri aktual və ən ümdə vəzifə kimi musiqişünaslığın qarşısında dayanır.

"Azərbaycanda qarmon ifaçılığı sənəti və onun tədrisi" adlı dissertasiya mövzusu da milli musiqimizin bir qolu, bir istiqaməti olaraq aktual bir məsələ kimi öz dəyərindədir. Burada həm də qarmon ixtisasının tədrisi məsələsi öz aktuallığı ilə önə çıxır.

Tarixən Azərbaycanda daim vokal-instrumental və instrumental musiqi mövcud olmuşdur. Zəngin və möhtəşəm musiqimizin bir qolu, janrı instrumental ifaçılıqdır. Bu janrda özünə əsas və mühüm yer tutan musiqi alət-

lərimizdən biri də qarmondur. Bu alət milli musiqi alətləri qrupuna daxil olduğu andan təkamül yolu keçərək özünü təsdiq etmiş və ecazkar səsiylə xalq tərəfindən sevilmişdir. Bu sənətə xidmət edən müqtədir sənətkarlar klassik qarmon ifaçılığı ənənələri yaratmışlar. Bu gün tar, kamança, ney, balaban, zurna, saz, səntur, dəf, qaval, nağara, qoşa nağara, zərb, qarmon və s. alətlərsiz milli musiqimizi təsəvvür etmək olmaz. Milli ruhlu musiqi nümunələrimiz estetik mahiyyət baxımından da zəngin, zövq oxşayan və təsirlidir. Çağdaş incəsənətimiz, musiqimiz milli boyalar və milli duyğuları özündə əks etdirməklə bərabər, daha geniş miqyasda ümumbəşəri meyarları da özündə ehtiva edir.

Milli instrumental ifaçılıq Azərbaycan musiqi mədəniyyətinin ayrılmaz sahəsi olaraq tədqiqat obyekti kimi musiqişümaslıq elmimizdə daim öz aktuallığını qoruyub saxlamışdır. Bu haqda zaman-zaman mütəfəkkirlərimiz yüksək fikir söyləmişlər. İnstrumental musiqimizə xidmət edən, milli çalğı alətlərimizin tədrisi məsələlərində, pedaqoji sahədə çalışaraq yüksək nailiyyətlərə imza atan peşəkar sənətkarlar, onların musiqi tədrisinə gətirdikləri təcrübələlər, tərtib etdikləri vəsaitlər və s. haqqında aparılan tədqiqatlar mövzu aktuallığı olaraq hazırkı dövrümüzlə, bu günümüzlə səsləşir.

Qarmon milli alətlərimizin tərkibinə daxil olub onlarla birlikdə səsləşərək, həmçinin tədris olunaraq böyük inkişaf yolu keçmişdir. Azərbaycana gətirilərkən adi məişətdə işlənən musiqi aləti olan qarmon təkmilləşib peşəkar sənətkarlarımız tərəfindən inkişaf etdirilərək, tədris vasitəsilə mərhələlər keçib özünü tam təsdiq etmiş və xalq çalğı alətləri ansamblları tərkibinə daxil olub ahəngdar səslənmişdir. Həqiqətən müəyyən mərhələ dövrü keçən milli qarmonumuz daha mükəmməl dərəcədə öz mövcudluğunu təsdiq etmişdir.

Qarmon həm də solo alət kimi özünə yer almış, təsdiq etmiş və sevilmişdir. Muğamlarımız, dəramədlər, diringilər, rəqs musiqisi, aşıq havaları və bəstəkar əsərləri bu alətdə bütün calarları ilə səslənmişdir. Qarmonun tədrisində yalnız yuxarıda sadaladığımız deyil, həmçinin xarici ölkə bəstəkarlarının əsərləri də tədris olunur, baxış-müsabiqələrimizdə çıxış edən tələbə gənclərimiz böyük uğurlara imza atırlar. Artıq simfonik orkestrin tərkibində də qarmon səslənməkdədir. Virtuoz ifaçı, əməkdar artist, dosent, sənətşünaslıq üzrə fəlsəfə doktoru Zakir Mirzəyev şöhrət ordenli bəstəkar, professor, xalq artisti Tofiq Bakxanovun üçhissəli simfonik əsərini Ü. Hacıbəyli adına simfonik orkestrin tərkibində ifa etmişdir. Göründüyü kimi qarmon musiqi aləti ecazkar, maraqlı, cəzbedici, təsirli tembri, texniki imkanları ilə Azərbaycan musiqi mədəniyyətini zənginləşdirmişdir.

Sadalanan bütün cəhətlər və xüsusiyyətlər bir daha qarmonun Azərbaycan musiqi mədəniyyəti tarixində tutduğu yeri müəyyənləşdirib təyin etmək üçün belə mövzular üzərindəki araşdırmaların aktuallığını təsdiq edir.

**Mövzunun elmi işlənmə dərəcəsi.** Təsdiq olunan mövzu əsasında araşdırma işləri aparılan zaman uzun bir dövr ərzində xalq musiqimiz, onun müxtəlif sahələri, hər bir janrı, milli çalğı alətlərimiz və belə mövzular üzərində iş aparan musiqişünas alimlərin əsərləri nəzərdən keçirilmiş, yaxından tanış yaranmışdır. Müsuqişünaslıqda mühüm işlər görən alimlərimizdən Üzeyir Hacıbəyli, Məmmədsaleh İsmayılov, Əsrasiyab Bədəlbəyli, Ağalar Əliverdibəyov, Ramiz Zöhrabov, Bayram Hüseynli, Əvəz Rəhmətov, Zemfira Səfərova, Gülnaz Abdullazadə, Səadət Abdullayeva, Oqtay Quluyev, Fəttah Xalıqzadə, Vaqif Əbdülqasımov, Fərahim Sadıqov, Elxan Babayev, Məcnun Kərimov, Rafiq İsazadə, Abbasqulu Nəcəfzadvə və başqalarının adları qeyd olunmalıdır. Onların əsərlərində milli musiqi alətlərimizin quruluşu, tembri, ifaçılıq imkanları haqqında məlumat verilir. Həmçinin Azərbaycanın müxtəlif bölgələrinin ustad sənətkarları, xalq çalğı alətlərinin mahir ifaçıları haqqında məlumatlar, bu alətlərin xalq çalğı alətləri ansamblı və orkestrinin tərkibində öz mühüm yerini alması, rolu, əhəmiyyəti barədə elmi fikirlər yürüdülür. Qeyd olunur ki, həmin alətlərin hər biri ansamblın, orkestrin inkişaf səviyyəsini artırır və səslənməni gözəlləşdirir. Bütün bunlar elmi əsaslarla göstərilir. Bununla yanaşı mahir qarmon ifaçıları meydana çıxıb tanındığı dövrdən onlar haqqında məqalələr yazılmış, məlumat verilmişdir. Bu məqalələrdə və bütün yazılı mənbələrdə qarmonun mənşəyi, inkişaf tarixi, səciyyəvi cəhətləri və əsas xüsusiyyətləri barədə məlumat verilmişdir. Bütün bunlara Zakir Mirzəyevin[1] "Azərbaycan xalq musiqisində qarmonun rolu və əhəmiyyəti"[1] adlı elmi işində və "Azərbaycan qarmonu" monoqrafiyasında əhatəli şəkildə rast gəlirik.

Ümumiləşmiş əsərlər sırasında S.Abdullayevanın "Azərbaycan xalq çalğı alətləri"[2] kitabı xüsusi yer tutur.

Qeyd edilən tədqiqat işlərindən əlavə çalğı alətlərinə, onların ansambllarda və orkestrlərdə tutduğu mövqeyə, alətlərin məşhur ifaçılarına həsr olunmuş digər tədqiqat əsərləri də vardır. Misal olaraq A.Əliverdibəyovun[3], Ə.Rəhmətovun[4], O.Quluyevin[5], K. Kərimovun[6], V. Əbdülqasımovun[7], C. Səfərovun[8], M.Kərimovun[9], A. Nəcəfzadənin[10], F. Sadıqovun[11], F.Əzimlinin[12], A.Məmmədovun[13], Z. Əliyev və V. Məmmədəliyevin[14,] Məmməd-

ağa Umudov[15] və başqalarının milli instrumental sənətimizi özündə əks etdirən əsərlərinin adlarını çəkə bilərik. Bu kitabların hər biri elmi əsaslara söykənən, xüsusi əhəmiyyət daşıyan əsərlər sayıla bilər. Belə tədqiqat əsərlərində xalq çalğı alətlərimizin yaranma tarixi, mərhələlərlə inkişaf tapması, ifa üsulları, bunların bir-birindən fərqi, alətlərin texniki imkanları və s. məsələlər özünə yer alır. Həmçinin xalq çalğı alətlərindən ibarət ansambl və orkestrin tərkibinə daxil edilmiş qarmonun milli alətlərmizlə birgə gözəl, həmahəng, çazibədar səslənməsi bu alətin imkanlarından və ifaçıların ustalığından xəbər verir.

Cəsarətlə deyə bilərik ki, xalqın həyat və məişətinə, musiqi mədəniyyətinə, tədrisə həmişəlik daxil olmuş qarmon sənəti bütünlükdə ifaçılıq mədəniyyətimizi daha zəngin etmişdir. Əvvəllər ev şəraitində öyrədilən, ustaddan şagirdə aşılanan qarmon sənəti tədris olunub. Böyük Vətən Müharibəsindən sonra bir sıra mədəniyyət sarayları və evlərində, 50-ci illərin sonlarından istisna kimi bir neçə uşaq musiqi məktəbində tədris olunurdusa, 1960-cı illərin əvvəllərindən əksər musiqi məktəblərində, 1970-ci illərdən başlayaraq bütün uşaq musiqi məktəblərində qarmon sinifi açılmışdır. Qarmonun tədrisi bu ifaçılıq sənətinin inkişafına xüsusi təkan vermişdir.

---

[1]Mirzəyev Z. Azərbaycan xalq musiqisində qarmonun rolu və əhəmiyyəti. B.; 2003, Azərbaycan qarmonu.
B.;Adiloğlu, 2005
[2]Abdullayeva S. Azərbaycan xalq çalğı alətləri. B.; Adiloğlu, 2002
[3]Əliverdibəyov A. Rəsmli musiqi lüğəti. B.; Şuşa, 2001
[4]Rəhmətov Ə. Azərbaycan xalq çalğı alətləri və onların orkestrdə yeri. B.; İşıq, 1980
[5]Quluyev O. Azərbaycan xalq çalğı alətləri orkestri. B.; 1980
[6]Kərimov K. Azərbaycan xalq çalğı alətləri orkestri.(rus dilində). B.;1959
[7]Əbdülqasımov V. Azərbaycan tarı. B.; 1989, Ansambl və orkestrdə tarın yeri.B.;
[8]Səfərov C. Azərbaycan xalq çalğı alətləri ansamblı. B.; Azərnəşr 1971
[9]Kərimov M. Azərbaycan musiqi alətləri. B.; Yeni nəsl, 2003
[10]Nəcəfzadə A. Azərbaycan çalğı alətlərinin izahlı lüğəti. B.; MBM, 2004, Çalğı alətlərimiz. B.; MBM,
2004, Xalq çalğı alətlərinin tədrisi metodikası. B.; MBM, 2007
[11]Sadıqov F. Qarmon ifaçılığında muğam. B.; Adiloğlu, 2013
[12]Əzimli F. Musiqi alətlərimizin adları. Oxu tar. B.; Təfəkkür, 2004
[13]Məmmədov A. Simli musiqi alətlərimiz. B.; Nafta-Press, 2001
[14]Əliyev Z., Məmmədəliyev V. Xalq çalğı alətlərinin öyrənilməsi üzrə dərs vəsaiti. B.; MBM, 2011
[15]Umudov M. Alətşünaslıq (dərslik). B.; Ecoprint, 2016

İnstrumental musiqimizin inkişafında xüsusi əhəmiyyət daşıyan qarmon sənəti, onun ölkə musiqiyönümlü müəssisələrdə tədris olunması məsələləri barədə araşdırma aparılaraq əsər meydana gəlmişdir.

**Mövzunun elmi yeniliyi.** Azərbaycan qarmon sənətinə dair bəzi məsələlər, həmçinin onun tədrisilə bağlı elmi fikirlərlə çıxış edən, uşaq musiqi məktəbləri üçün proqram, tədris vəsaiti yazıb hazırlayan F. Sadıqov bu ifaçılıq sənətinin araşdırılması üçün bünövrə qoymuşdur. Qeyd etməliyik ki, xalq çalğı alətlərimizi özündə ehtiva edən mövzuların araşdırılması, kitabların yazılmasına baxmayaraq Azərbaycan qarmonu haqqında ortaya çıxarılan heç bir tədqiqat işi yox idi. Bu sahəni ilk dəfə araşdıran, "Azərbaycan qarmonu" monoqrafiyasını yazaraq çap etdirən Zakir Mirzəyev olmuşdur.

İşlədiyimiz bu mövzuda isə qarmon ifaçılığının indiyə qədər toxunulmayan məsələlərinə, bu sənətin inkişaf edərək yeni-yeni sənətkarları meydana çıxarmasına, hər bir ifaçının fərdi xüsusiyyətlərinə, onların yaradıcılaq yoluna, yaratdıqları melodiyalara, Azərbaycan qarmon məktəbinin yaranmasına, bu alətin bir ixtisas kimi uşaq və incəsənət məktəblərində, orta ixtisas və ali təhsil müəssisələrində tədrisinə toxunulmuşdur. Bütün bu məsələlərin araşdırılıb üzə çıxarılması və əldə olunan müəyyən elmi nəticələr bu dissertasiyanın elmi yeniliyi sayıla bilər.

Tədqiqat işində qarmonun həm solo, həm də folklor, instumental, xalq çalğı alətləri ansamblı və orkesrinin, mahnı və rəqs, rəqs ansambllarının, simfonik orkestrin tərkibində səslənməsi və s. məsələlər öz əksini tapır. Xalq çalğı alətləri ansambllarının tərkibində xanəndələrin oxuduğu muğamlarda da qarmon ifasına yol verilməsi, qarmonçalanların ayrı-ayrı muğam şöbələrini xüsusi bacarıqla ifa etməsi, belə ifaların qrammafon vallarına, radio lentlərinə yazılması, televiziya çəkilişlərində öz əksini tapması və s. məlumatlarla yanaşı, həmin ifalardan bəzi nümunələrin not yazılarına da yer verilir.

Bundan əlavə mahir qarmonçalanların ifasında radio və televiziya fondunda qorunan xalq havaları, muğamlar, öz bəstələri olan rəqs melodiyaları, Azərbaycan və xarici olkələrin bəstəkaralarından ifa etdikləri əsərlər haqqında məlumatlar özünə yer alır.

Qarmonun milli alətə çevrilərək aşıq havalarını, folklor nümunələrini ifa etməsi, bu alətin sazandə və aşıq dəstələrinə daxil olmasının obyektiv səbəbləri, Azərbaycan kinofilmlərində qarmonun səslənməsi və bu kimi məsələlərin dissertasiya işində özünü ehtiva etməsi bu mövzunun elmi yeniliyinə dəlalət edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Mövzu əsasında instrumental musiqiyə müraciət etməkdə əsas məqsəd musiqi tariximizin yazılmayan sahələ-

rini daha yaxşı öyrənmək, xalq musiqi nümunələrimiz və həm də peşəkar musiqi əsərlərimizin təbliğ olunmasında qarmon alətinin nə kimi rolu olduğunu göstərməkdir. Bu xüsusda bir sıra elmi nəticələrə nail olmaq üçün qarşıya aşağıdakı məqsəd və vəzifələr qoyulmuşdur:

- Azərbaycan qarmon məktəbinin yaranma tarixini göstərmək;
- Ustad sənətkarların fikirləri və tövsiyələri əsasında qarmonun təkmilləşdirilməsi və texniki imkanları daha geniş olan alətlərin yaranması;
- Qarmonun ev, mənzil şəraitindəki tədbirlərdə, el şənliklərində sevimli musiqi aləti olaraq ifa olunmasından sonra səhnə, radio, televiziya konsertlərinə yol alması, sənətkarların ifasının qrammafon vallarına yazılaraq keçmiş SSRİ məkanına və dünyanın bir sıra ölkələrinə yayılması;
- Qarmonun solo alət kimi el havalarının, muğamların, aşıq musiqisinin ifasından başlamış, Azərbaycan və xarici olkə bəstəkarlarının əsərlərinin səsləndirilməsinə qədər gəldiyi yol;
- Qarmonun ixtisas kimi tədris olunmasını mərhələlərlə şərh etmək, xalq rəqsləri və mahnıların, muğamların, not əsərlərinin tədrisində əldə olunan nailiyyətləri və inkişaf yolunu əks etdirmək;
- Bu ixtisas üçün yazılmış proqramlar, tövsiyələr, göstəricilər, dərs vəsaitləri və "Qarmon məktəbi" kitabları, onların müəllifləri haqqında məlumat vermək, həmçinin hər bir tədris vəsaitinin fərqli və üstün cəhətlərini izah etmək.

**Tədqiqatın predmeti.** Dissertasiyada qarmon ifaçılığı sənəti tam şəkildə araşdırılır, onun xalq musiqisinə həmişəlik daxil olması, alətin spesifik xüsusiyyətləri, ecazkar səsinin xalqın ruhuna, zövqünə uyğun olması, qarmon məktəbinin yaranması, inkişafa qədəm qoyması, tədrisdə özünü təsdiq etməsi və s. məsələlər nəzərə alınmaqla tədqiqatın predmetini təşkil edir.

**Tədqiqatın obyekti.** Rusiyadan Azərbaycana gətirilən sadə quruluşlu, səs ardıcıllığı cox az olan, 7 dilli, 8, 10, 12, 14, 16 dilli (və ya düyməli) diatonik alətlərdən istifadə edən qarmon öyrənənlər qarmonların səs və texniki imkanlarına əsasən sadə, kiçik həcmli xalq havalarını ifa etməsi. Tədricən inkişaf mərhələləri baş verdikcə, qarmonlar təkmilləşdirilərək geniş imkanlı hala gətirildikcə ifaçıların repertuarının zənginləşməsi.

**Tədqiqat işinin metodologiyası.** Musiqişünaslıqda qəbul olunan müəyyən nəzəri-metodoloji əsaslar vardır ki, tədqiqat işində bunlara riayət olunub. Tədqiqat işi aparılarkən Azərbaycanda və başqa ölkələrdə dərc olunan elmi əsərlərə aid metodologiyadan istifadə edilib. İnstrumental musiqi yaradıcılığının öyrənilməsi yönümündə qazanılan hər nə varsa bir baza olaraq, təcrübə və metodoloji əsaslar nümunə kimi götürülərək işdə istifadə olunub.

Araşdırma işi aparılarkən mahir qarmon ifaçılarının yaradıcılığı nəzər-

dən keçirilmiş, qrammafon valları və radio fondundakı ifalar dinlənilmiş, fərqli cəhətlər, ifaçılıq xüsusiyyətləri dəyərləndirilmiş, onların sənəti haqqında məşhur sənət adamlarının, elm və incəsənət xadimlərinin söylədikləri fikir və rəylər nəzərə alınmışdır. Bu işdə arxiv materialları, yazılı mənbələr, tədqiqatçının müşahidə qabiliyyəti, yaşadığı dövrün musiqi mühiti və tarixi mühüm əhəmiyyət kəsb etmişdir.

Zəngin Azərbaycan xalq musiqisi, ifaçlıq sənəti, alətşünaslıq elmi yönümündə görülən işlər, əldə edilən nailiyyətlər, peşəkar musiqişünaslıq elminin əsasını yaradan əsərlər, xüsusən Ü.Hacıbəyli, Ə.Bədəlbəyli, A.Əliverdibəyov, M.S. İsmayılov, B.Hüseynli, R.Zöhrabov, Z.Səfərova, G.Abdullazadə, S. Abdullayeva, Ə. Rəhmətov, O. Quluyev, F. Sadıqov, A. Əliyev, V. Əbdülqasımov, E.Dadaşova, E.Babayev, F.Xalıqzadə, R.Musazadə, M.Quluyev, A.Nəcəfzadə, S.Tağıyeva, Z.Mirzəyev, F.Əzimli, M.Umudov və başqalarının yazdığı əsərlər metodoloyi əsas olaraq tədqiqat işinin yazılmasında mühüm rol oynamışdır.

Qarmon aləti ilə bağlı ilk dəfə Z. Mirzəyev tərəfindən araşdırma işləri aparılıb elmi iş yazılaraq müdafiə olunsa da, bu sahənin tam araşdırılması qənaətinə gəlmək olmaz. Bu sənətin musiqinin digər sahələriylə bağlı xüsusiyyətləri, ixtisas kimi tədrisə cəlb olunması, əldə olunan nailiyyətlər, yaranan problemlər, tədris vəsaitlərinin olmaması, sonrakı dövrdə ardıcıllıqla dərc edilən dərs vəsaitləri, kitablar və s. məsələlər barədə bilgi toplayıb yazılı mənbəyə çevirməklə xüsusi yanaşma metodundan istifadə olunmuşdur. Azərbaycan musiqişünaslarının öz işlərində tətbiq etdikləri elmi yanaşmalardan, elmi-nəzəri təhlillərdən bəhrələnərək tədqiqat əsəri formalaşdırılmışdır.

**Dissertasiyanın faktiki materialı.** Azərbaycan qarmon ifaçılığına aid qrammofon valları, radio, audio və video lent yazıları, elmi ədəbiyyatda öz əksini tapmış not nümunələri, arxiv sənədləri dissertasiyanın materialını təşkil edir.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Elmi əsaslara söykənən dissertasiya işi vəsait kimi uşaq musiqi və incəsənət məktəblərində, kolleclərdə, musiqi təhsili verən ali tədris müəssisələrində isifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi Azərbaycan Milli Konservatoriyasının "Milli musiqinin tarixi və nəzəriyyəsi" kafedrasında yerinə yetirilmiş və müzakirə olunmuşdur. Dissertasiyanın mövzusu ilə bağlı müəllifin elmi məqalələri və məruzələrində işin əsas müddəaları öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, dörd fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat, notoqrafiya və "əlavələr" bölməsindən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Girişdə mövzu haqqında ümumi məlumat verilir, onun aktuallığı, elmi yeniliyi əsas kimi götürülür, araşdırma işinin məqsəd, vəzifə, həmçinin metodoloji əsası müəyyən edilir.

**I fəsil "Qarmon alətinin Azərbaycana gətirilməsi, onun səciyyəvi xüsusiyyətləri və istifadəsi"** adlanır. Burada XIX əsrin II yarısında Rusiyadan Volqaboyu gəmilər vasitəsilə Bakıya gətirilən kişik həcmli qarmonların xalqda maraq oyatması, həvəs göstərənlərin alıb çalğı öyrənmələri, tədricən bu işin daha geniş şəkildə təşəkkül tapması barədə məlimat verilir.

Çar Rusiyası ərazisində yaşayan xalqların əksəriyyəti qarmonu öz musiqi həyatlarına gətirmişlər. Rusiyada istehsal olunan qarmonlardan Şimali və Cənubi Qafqaz xalqları da istifadə etmişlər. Sonralar bəzi xalqlar qarmonu bu alətin xələfləri bayan və akkordeonlarla əvəz etmişlər. Əksər xalqlar isə qarmonu öz musiqi mədəniyyətlərinə, həyat və məişətlərinə daimi olaraq daxil etmiş, hazırkı dövrə qədər qoruyub saxlamışlar.

Tədqiqatda müxtəlif xalqlarda istifadə olunan qarmonların quruluşu, səs ardıcıllığı, texniki imkanları, dilli və düyməli olması, sol gövdədəki müşayiət səsləri və s. barədə məlumat verilməklə bərabər, Azərbaycan qarmonunun yaranıb onlardan fərqlənməsi, özünəxas üstün cəhətlərə malk olması məsələlərindən danışılır. Göstərilir ki, Azərbaycan qarmonları milli musiqimiz və muğamlarımızın ifası nəzərə alınmaqla "si" (in "H") kökündədir. Belə alətlərin müşayiətilə xanəndələrimiz muğamlarımızı çox rahat oxumuşlar. "Si" kökündə olan qarmonlar yalnız Azərbaycana məxsus olaraq özüməmaxsus səs çalarları, tembri ilə gözəl səslənir. Musiqimizin əsas, aparıcı janrı muğam olduğu üçün, hər zaman Azərbaycan qarmonunda muğam çalınmışdır. Muğam isə incə, zərif duyğularla, emosianal hisslərlə, xırdalıqlarla, şirin xallarla, usta, təsirli barmaq oynatmaları, cəld sıçrayışlı sürüşdürmələr və lal barmaqlarla ifa olunduğu üçün qarmonumuz beləcə zəngin səslənir və nəinki vətənimizdə, hətta dünyanın əksər ölkələrində seçilir, qəbul olunur və sevilir.

1927-ci ildən Azərbaycan radiosunda musiqi verilişlərinin baş redaktoru vəzifəsində çalışan Müslüm Maqomayevin dəvəti və tövsiyəsi ilə tarzən Əhməd Bakıxanovun 1929-cu ildə radioda yaratdığı ilk "Solistlər" xalq çalğı alətləri ansamblının tərkibində qarmon ifaçısı Əhəd Əliyev olmuşdur. Bu zaman ansambl tərkibində səslənən "si" kökündə olan qarmonlar Azərbaycan peşəkar musiqi həyatına tam vəsiqə almışdır.

Başqa xalqların qarmonlarından fərqli olaraq Azərbaycan qarmonlarının sol klaviaturası sağdakı səs ardıcıllığına malik olaraq eyni səslərdən ibarətdir. Bu isə ilk əvvəllərdən milli musqi nümunələri və muğamlarımızın ifasına hesablanmışdır.

Bütün tarixi mənbələrdə göstərilir ki, Azərbaycan mili instumental musiqi ən qədim dövrlərdən mövcuddur. Bu sahəyə aid tariximizin öyrənilməsinə heç vaxt biganəlik göstərilməmiş, musiqişünas alimlərimiz tərəfindən diqqətlə yanaşılmışdır. Son dövrlərdəki araşdırmalar nəticəsində instrumental musiqimizin qədim tarixi ənənələrə malik olması üzə çıxarılmışdır.

XIX əsrin iştimai-siyasi və mədəni həyatında baş verən dəyişikliklər Azərbaycanın bir sıra şəhərlərində şeir və musiqi məclislərinin yaranmasına gətirib çıxardı. Şuşada, Bakıda, Şamaxıda fəaliyyət göstərən musiqi məclisləri xanəndə, sazandə, instrumental musiqi sənətinin inkişafına münbit şərait yaratdı. Bakı musiqi məclisində tarzən Məşədi Məlik Mənsurov qarmon da çalır, qonaqları bu alətin səsilə tanış edirdi. Göründüyü kimi sadə quruluşlu, primitiv qarmonların məclislərdə səslənərək maraq oyatması, sevinc və məhəbbətlə qarşılanması sonrakı dövrlərdə bu alətlərin təkmilləşərək xalq çalğı alətləri ilə bərabər istifadəsinə gətirib çıxarmışdır. Fəxr etməyə dəyər ki, ibtidaisini başqa ölkə, başqa xalqlardan alsa da, bu alət aqil insanlarımızın fəhmi, zəngin düşüncəsi, fəaliyyəti, istedadı və zəhməti nəticəsində formalaşaraq milliləşmiş, inkişaf edərək hər yerdə tanınmışdır.

Azərbaycan qarmonu inkişaf mərhələləri keçərək musiqimizin əksər sahələrində özünü təsdiq etmiş, milli mədəniyyətimizin ayrılmaz tərkib hissəsinə, əsas qüvvəyə çevrilmiş, bütün rəqs havaları, musiqi nümunələri, muğamlar peşəkarlıqla ifa olunmuşdur. Zaman ötdükcə hər dövrün tələbinə uyğun olaraq qarmon üzərində dəfələrlə təkmilləşmə işləri aparılmışdır. Hazırda da bu istiqamətdə bəzi işlər görülməkdədir. 2000-ci ildən başlayaraq Azərbaycanda üç oktavalı qarmonların hazırlanması buna sübutdur.

Araşdırmalar göstərir ki, bəzi istedadlı qarmon ifaçıları melodiya bəstələmək qabiliyyətinə malik olaraq rəqs melodiyaları, dəramədlər, rənglər, diringilər yaratmışlar. Bu sırada ilk əvvəl Kərbəlayi Abutalıb Yusifov, Əhəd Əliyev və Ələkbər Nəzərlinin adları qeyd olunmalıdır. Onların hər biri xalq musiqmizdən mayalanan, əsası muğamlara söykənən havalar bəstələmişlər. Əhəd Əliyevin əlimizdə olan, qrammafon valına yazılan yeganə ifası "Segah" muğamından sonra çaldığı melodiya (diringi) ustad sənətkarın təxəyülünün məhsuludur. Onun bu ifası qarammafon valından köçürülərək Azərbaycan radiosunun fonduna verilmişdir.

Davamçı olaraq Teyyub Dəmirov, Məmmədağa Ağayev, İsfəndiyar Coşqun, Mehdi Vəlixanov, Zakir Mirzəyev, Avtandil İsrafilov, Teyyub Teyyuboğlu, Həmid Haqverdiyev və başqaları qarmon üçün rəqs havaları bəstələmiş, qrammafon vallarına və radionun fonduna yazdırmışlar. Bu sahədə T. Dəmirov və Z. Mirzəyev daha məhsuldar işləmiş və bəstəkarlıq bacarığı göstərmişlər. T. Dəmirov yalnız oyun havaları deyil, demək olar ki, bütün muğamlar əsasında dəramədlər və rənglər bəstələmişdir. Yaratdığı melodiyalardan istər onun yaşadığı dövrdə, istərsə də sonralar istifadə olunmuşdur. Onun yaratdıqları hazırda da öz bəhrəsini verir.

Z. Mirzəyev də istedadlı və yaradıcı insanlar sırasında olaraq çox işlər görmüşdür. Onun yüzə yaxın oyun havaları vardır. Əlliyə yaxın melodiyası radio fonduna və qrammafon vallarına yazılmışdır. Bəstələdiyi "Muğam və rəqs" isə samballı, dəyərli və təsirli əsər olaraq müəllifin şah əsəri sayıla bilər. O, xarici ölkələrdəki konsertlərdə bu əsəri ifa edib alqışlar və məhəbbət qazanaraq diqqətdə olmuşdur.

İ.Coşqun da oyun havalarından başqa dəramədlər və rənglər yaratmışdır. Onun ifasında radio fondunda qorunan "Humayun" muğamının əvvəlində çaldığı dəraməd onun öz bəstəsidir. Baba Salahov 1962-ci ildə Teleradio Verilişləri Komitəsinin nəzdində xalq çalğı alətləri ansamblı yaradarkən qarmon ifaçısı İ. Coşqun olmuşdur. Həmin vaxtlar və sonralar ansamblın repertuarında onun dəraməd və rəngləri özünə yer almışdır.

İstər T. Dəmirov və M. Ağayevin, istərsə də Z. Mirzəyev və A. İsrafilovun rəqs melodiyaları el şənliklərinin, toy-bayramın və konsertlərin repertuarını bəzəmişdir. Bəstəkarlarımız belə gözəl melodiyalardan nümunələri nota salmışlar. Xalq içərisindən çıxmış, xalq musiqisindən yoğrulmuş istedadlı qarmon ifaçılarımızın yaratdığı melodiyalar xalq musiqisi nümunələrinə çevrilmişdir. Ü. Hacıbəylinin əsərlərinin, II cildində oxuyuruq: "İlk gözəl nəğmə və rəqs melodiyalarının yaradıcısı xalq özüdür. Bizə bu gün nümunə olan xalq nəğmələri əsrlərdən bəri işlənə-işlənə yaradılmış və yalnız bizim zəmanəmizdə həqiqi bədii formalar almışdır.[1]

Bununla belə xalq yalnız yaradıcı, yalnız kompozitor deyildir, xalq eyni zamanda misilsiz tənqidçi və musiqi əsərlərinin ən yaxşı "istehlakçısıdır", xalq musiqi əsərlərinə diqqətlə yanaşır, yaxşını pisdən seçir və hər çeşidli saxta gözəllikləri və ideyasız dəbdəbələri amansızcasına rədd edir".

Həqiqətən xalq öz yaratdıqlarını yaddaşında saxlayaraq dövrdən dövrə ötürmüş və yaşatmışdır. Bütün bunlar şifahi ənənələrə əsaslanmışdır. Belə

---

[1] Üzeyir Hacıbəyli, əsərləri II cild. Bakı, Elm, 1965, s. 322

ənənələrə əsaslanaraq yaşayan xalq musiqi nümunələrimiz ilk dəfə ötən əsrin I yarısında dahi bəstəkarımız Ü. Hacıbəyli tərəfindən nota yazılmışdır. Sonralar bəstəkarlarımız bu işi davam etdirmiş, insanların mənəvi tələbatını, zövqünü, düşüncəsini formalaşdıran, kamillik yaradan, zəngin ənənələrə əsaslanan xalq musiqimizin gözəl nümunələrini nota salmışlar. Bütün bunlar nadir musiqi nümunələrinin unudulmaq təhlükəsindən qorunması üçün ən layiqli vasitədir.

Tədqiqat işində qarmon ixtisasına aid yazılmış bütün metodoloji vasitələr, "Qarmon məktəbi" kitabları haqqında məlumat verilir. Bu kitablarda xalq oyun havalarına, ustad qarmonçalanların bəstələdiyi rəqs melodiyalarına, Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərlərinə yer verilir və təhlil edilir. Etüd, qamma, pyes, kiçik və iri həcmli not əsərlərinin tədrisi ilə yanaşı mahir qarmonçalanların bəstələdikləri oyun havalarının, bu alətin imkanlarına tam cavab verən, səs çalarlarına uyğun olan melodiyaların öyrədilməsinin mühüm əhəmiyyət kəsb etməsi və yeni qarmon ifaçılarının yetişməsində rolu qeyd edilir.

Dissertasiya işində Azərbaycan qarmon məktəbinin yaranması, formalaşması, təşəkkülü, peşəkar ifaçılarımızın yetişməsi, onların yaradıcılığı, qarmonun bir ixtisas olaraq uşaq musiqi və incəsənət məktəbi, kollec, ali təhsil müəssisələrində tədrisi, hazırlanmış vəsaitlər və qarmon üçün yazılmış xüsusi əsərlər barədə məlumat verilir.

Bu ifaçılaq sənətində görülən işlər bizə əsas verir deyək ki, gələcək uğurlar hələ öndədir.

**II fəsil "Azərbaycan qarmon məktəbinin yaranması və inkişafı"** adlanır. Burada Azərbaycanda qarmon ifaçılığı sənətinin necə və hansı şəraitdə yaranması, alətlərin təkmilləşərək dövrün tələbinə uyğun vəziyyətə gətirilməsi, ifaçılarımızın yetişərək peşəkar sənətə qədəm qoyması, el şənliklərindəki, radio və televiziyadakı fəaliyyətləri, daha da inkişaf səviyyəsinə çataraq bu sənəti təsdiq etmələri haqqında məlumat verilir. Milli qarmon məktəbini yaradan peşəkar qarmon ifaçıları barədə qeydlər aparılarkən onların fərdi xüsusiyyətləri, xalq havalarını, muğamları çalmaları, sazandə dəstələrinin tərkibində çıxış etmələri və solo ifaçılıq fəaliyyətləri, rəqs melodiyaları bəstələyərək toy şənliklərində, konsertlərdə səsləndirmələri, bu havaları qrammafon vallarına, radio fonduna yazdırmaları və televiziya çıxışları barədə məlumatlar nəzərə çatdırılır.

Azərbaycan xalq musiqisi öz kökü, mayası əsasında olaraq doğma xalqın bağrından qopan, ruhundan yaranan, mədəni irsi, adət ənənələri özündə ehtiva edərək formalaşan, çox zəngin ifadə vasitələrinə malik, nadir

və qiymətli xəzinədir. Belə ifadə xüsusiyyətlərini özündə cəmləşdirən musiqi həmişə yüksək peşəkarlıq, məharət, yüksək ilham tələb edir. Əslində Azərbaycan xalq musiqisi özü başdan ayağa ilham mənbəyidir. Bu şərtlər qarmon ifaçılığı sənətində, bu məktəbi yaradan böyük istedada malik sənətkarlarımızın ifasında və yaradıcılığında öz əksini tapmışdır.

Xalq musiqisinin elmi cəhətdən araşdırılması xalqın əsrlər boyu yaratdığı nümunələrin üzə çıxaraq yaşadılması və təbliği deməkdir. Bu barədə musiqişünas alimlərin üzərinə mühüm vəzifə düşür ki, hər bir araşdırmada hər dəfə nəsə yeni tapıntılar, nailiyyətlər əldə edilir. Qədim Azərbaycan diyarı həqiqətən Şərq aləminin ilk sivilizasiya mərkəzlərindən biri sayılır. Elmi tədqiqatlar nəticəsində o da məlum olur ki, Azərbaycan musiqi mədəniyyəti zəngin ənənələrə söykənir və öz kökü, mayası, böyük dəyəri və tarixi əsası var.

Milli qarmon məktəbi nümayəndələri bu alətin spesifik cəhətlərini, texniki imkanlarını əks etdirən, şirin, ecazkar tembrini diqqətə çəkən, ruhu oxşayan ifalarla bu sənətin nəyə qadir olduğunu sübut etmişlər.

Azərbaycan xalq musiqisində özünə mühüm yer tutan qarmonun ecazkar tembr xüsusiyyətləri, səsinin təsiredici qüvvəsi onun xalq çalğı alətləri arasında daimi yer almasına gətirib çıxarmışdır. Dilçəkli, körüklü musiqi aləti olaraq həm klavişli, həm də nəfəs alətləri qrupuna aid olan qarmonda ifaçılar, muğam, təsnif, rəng, diringi, oyun havaları ifa etməklə bərabər bəstəkarların əsərlərinə də müraciət etmişlər. Bütün bunlar birdənbirə, dərhal, asanlıqla, tez bir zamanda baş verməmiş, hər şey mərhələlərlə, sadədən mürəkkəbə doğru keçidlə olmuşdur. Sənətkarların ustalığı, ifaçılıq texnikası artdıqca, musiqi aləti tədricən təkmilləşdikcə qarmonçalanların repertuarı da peşəkarcasına zənginləşmişdir. Alətin mükəmməl ifası nəhayətdə onu xalq çalğı alətləri orketrinin tərkibinə gətirmişdir. 1931-ci ildə Ü. Hacıbəyli "İlk notlu Şərq orkestri" yaradarkən onun tərkibinə qarmonu da daxil etmiş, ifaçı isə mahir sənətkar Əhəd Əliyev olmuşdur. Orkestrdə "Şur" muğamının "Bayatı-Qacar", "Çahargah"ın "Bəstənigar", "Rast"ın "Şikəsteyi-fars" şöbəsi ifa olunarkən solo Əhəd Əliyevə həvalə edilirdi. Əhəd bütün muğamları dolğun, əzəmətli və texniki imkanlı səsləndirərdi. Onun "Seqah" və "Bayatı-Qacar" muğamları üçün yaratdığı üslub sonrakı dövrün qarmonçalanları üçün də məqbul sayılmışdır.

Deməli, qarmon xalq çalğı alətləri ansamblının tərkibinə daxil olmaqla orkestrin ümumi səslənməsini gözəlləşdirmiş, koloriti zənginləşdirmişdir. Burada qarmonun tembr cəhətdən rəngarəng olması mühüm əhə-

miyyət kəsb etmişdir. Hətta orkestrdə bəzən əsas melodiyanın ifası qarmon ifaçısına tapşırılmışdır.

Tədqiqat obyekti kimi qarmonun Azərbaycan xalq musiqisinin inkişafındakı rolunu, mahiyyətini, dəyərini, meyarını öyrənib lazımi nəticələrə nail olmağın özü təsadüfü sayılmamamlıdır. Burada əsas məqsəd bu ifaçılıq sənətinə aid olan digər mühüm cəhətlərin, əsas xüsusiyyətlərin açılıb göstərilməsinə nail olmaqdır. Qarmonun aşıq ansamblların (Şirvan və Qərb aşıq məktəbi) tərkibinə daxil olması, yeni musiqi üçlüyünün (qarmon, klarnet, nağara üçlüyü) yaranması bir daha qarmon sənətinin durmadan inkişafını, musiqimizin bütün sahələrinə yayılmasını göstərir.

Azərbaycan qarmon ifaçılığı sənətinin geniş və çoxşaxəli fəaliyyətini nəzərə alaraq onun aşağıdakı xüsusiyyətlərini qeyd etmək olar :

- Azərbaycan qarmon məktəbinin yaranması, təşəkkülü və mərhələlərlə inkişafı;
- Qarmonun solo alət kimi özünü təsdiqi, xalq musiqi nümunələrinin ifasında mühüm əhəmiyyəti;
- Qarmonçalanlar ansamblının yaranması;
- Azərbaycan xalq çalğı alətləri orkestrlərinin, mahnı və rəqs ansamblarının, rəqs ansambllarının, folklor kollektivlərinin tərkibinə daxil olması;
- Aşıq musiqisində özünü təsdiq etməsi, aşıq dəstələrinin (ansamblların) tərkibinə daxil olması, aşıq havalarının ifa olunması;
- Qarmon, klarnet, nağara üçlüyünün tərkibində səslənməsi, bu üçlüklərin ifasında yeni-yeni rəqs meodiyalarının yaranması;
- Mahir qarmon ifaçlaının melodiya bəstələmək qabiliyyəti.

**III fəsildə "Vokal-instrumental və instrumental ifaçılıqda qarmonun rolu"** başlığı altında mövzu əhatə olunur. Bu fəsil dörd bölmədən ibarətdir.

**3.1. "Xalq mahnıları və aşıq havalarının ifa xüsusiyyətləri"** adlanır. İfaçılarımızın və böyük musiqi xadimlərimizin dəyərli fikirləri və tövsiyələri ilə rekonstruksiya olunaraq tam peşəkar şəkildə milli musiqimizi ifa etmək halına gətirilib özünü doğrultduqdan sonra, Azərbaycan qarmonları vokal-lnstrumental və instrumental musiqimizə həmişəlik daxil olaraq əhəmiyyətli dərəcədə rol oynamışdır. Xalq, aşıq və bəstəkar mahnılarının, muğam ifaçılarının qarmonla müşayiəti, istərsə də bu musiqi əsərlərinin instrumental variantlarının, el havalarının və milli rəqs melodiyalarının ifasında Azərbaycan qarmon sənəti tam dolğunluğu, bütün incəlikləri və geniş imkanları ilə özünü göstərmişdir. Bütün bunlar zaman-zaman öz yerini aldıqca, peşəkar qarmon ifaçılarımız yetişdikcə, bu ifaçılıq sənəti inkişaf etmişdir.

1929-cu ildə yaradılan ilk xalq çalğı alətləri ansamblından başlayaraq sonrakı dövrlərdə yaranan digər ansamblların tərkibində istər səhnələrdə, istərsə də radio və televiziyada xanəndələrin oxuduğu xalq mahnılarını qarmonun milli çalğı alətlərimizlə uyuşan səsi müşayiət etmişdir. Belə mahnılar ifa olunarkən əvvəldə və bəndlərarası çalğılarda qarmona solo verilmişdir. Bunlar isə həmin xalq mahnısının daha samballı, gözəl səslənməsinə, səviyyəli, yaxşı alınmasına, maraqla qarşılanmasına səbəb olmaqla bərabər, həm də ümumi səslənməni zənginləşmişdir.

1941-1945-ci ilər Böyük Vətən Müharibəsi zamanı ustad qarmonçu Teyyub Dəmirov, müğənnilər Bülbül, Gülxar Həsənova, tarzən Hacı Məmmədov və digər sənət ustaları əsgərlər qarşısında çıxış edirdilər. Bülbül müharibədən sonra T. Dəmirovla sənət əlaqələrində olaraq onun evinə gəlir, xalq mahnılarını qarmonun müşayiətilə məşq edir və radio fonduna yazdırarkən tar, kamança, balabanla birlikdə qarmonun səsindən də bəhrələnirdi. Televiziyanın qızıl fondunda Bülbülün konserlərinin birində ansambl tərkibində T. Dəmirovun Bülbülü "Bayatı-kürd" muğamı ilə müşayiət etməsi səhnəsi qorunur və milli musiqimizdən bəhs edən verilişlərdə nümayiş etdirilir.

Vokal sənətimizin mahir ustası, SSRİ xalq artisti, professor Bülbül xalq mahnılarını və təsnifləri ifa edərkən çalğı qrupunun tərkibində mütləq qarmon ifaçısının olmasını arzu edirdi.

Bütün ustad xanəndələrimiz xalq çalğı alətləri qrupları ilə qarmonun müşayiətilə xalq mahnılarını xüsusi zövq, həvəs və yüksək ustalıqla oxuyublar. Qarmon ifaçısının sağ klaviaturada melodiyanı ifa edərək sol klaviaturada tonikanı (dəm, züy) saxlaması, müəyyən səs gəzişmələri və ya akkord tutması xanəndənin oxuduğu mahnının lad, mayə tonallığı əsasında düzgün səslənməsinə yaxşı imkan yaradırdı. Bütün bu qeyd edilənlər milli qarmonumuzun uğurlarının nəticəsi olaraq bir daha həm xalq tərəfindən, həm də sənət aləmində sevilməsinə və özünü təsdiqinə imkan yaratmışdır.

Qarmon ifaçılarımız mahnı yaradıcılığında yalnız xanəndələri müşayiət etməklə kifayətlənməmiş, özləri də bunları melodiya halında qarmonun səs tembrinə, texniki imkanlarına uyğun, ustalıqla və tam peşəkar şəkildə çalmışlar.

Virtuoz ifaçılarımız Avtandil İsrafilov və Zakir Mirzəyevin repertuarını daim xalq mahnıları zənginləşdirmişdir. Radio fondunda A. İsrafilovun ifasında "Laçın", "Aman ovçu", "Küçələrə su səpmişəm", Z. Mirzəyevin ifasında "Qubanın ağ alması", "Yar bizə qonaq gələcək", "Apardı sellər saranı" mahnıları da vardır. Bu ifaçılar digər bəzi xalq mahnılarını səhnələrdə, televiziya vasitəsilə konsertlərdə də səsləndirmişlər.

Başqa qarmon ifaçılarımız da xalq mahnılarına biganə qalmamış, bu ənənəni davam etdirmişlər. Bu sətirlərin müəllifi, pedaqoji işdə çalışan, araşdırma ilə və ifaçılıqla məşğul olan Əhsən Rəhmanlı rəhbərlik etdiyi “Misri” xalq çalğı alətləri ansamblının müşayiəti və öz oranjemanı əsasında “Aman Kəklik əlindən” və “Evləri var xana-xana” xalq mahnılarını müasir səsyazma avadanlığı vasitəsilə studiyada diskə yazdıraraq milli radiomuza və özəl kanallara təqdim etmişdir. Doğrudan da xalq mahnılarımızın qarmonda ifa olunması bir ənənə halını almışdır. Bu hazırda da davam edir. Əsrlərin sınağından keçib gələn, həmişəyaşarlıq qazanan xalq mahnılarımız mahir qarmon ifaçılarımızın repertuarında bu musiqi alətinin səs çalarlarına və imkanlarına uyğun səslənərək musiqi dünyamızı zənginləşdirməklə bərabər insanlarımıza zövq verir. Xalq mahnlrımızın qarmonçalanlarımızın ifasında televiziya, radio, müxtəlif bədii-kütləvi tədbilər, səhnə konsertləri və xalq şənliklərində rəngarəng və gözəl səslənməsi əminlik yaradır ki, bu qiymətli iş davam edəcək və gələcəkdə də qarmon ifaçılarımız bu zəngin və məhsuldar yolu keçəcəklər.

Tarixi keçmişimizdən, zəngin, qədim ənənələrdən xəbər verən aşıq sənəti bu gün də müvəffəqiyət qazanaraq inkişaf edir. Rüspublikamızda hazırda Qərb və Şirvan aşıq sənəti öz ənənələri, kökü üzərində bərqəqar olaraq yaşamaqdadır. Qərb aşıq sənətindən fərqli olaraq Şirvan aşıq dəstəsində aşığın çaldığı sazdan başqa onu ifaçı və dəmkeş balabançılar, qavalçalan (o, həm də xanəndə olmalıdır) və qoşanağaraçı müşayiət edir. Balabançalanlar həm də zurna ifa edirlər. Belə ki, bu kiçik musiqi qrupları bayram tədbirlərində açıq havada çıxış edərkən, toy evinin həyətinə daxil olarkən, həm də mağarda oyun havaları ifa olunarkən zurna çalınır.

Şirvan aşıq məktəbinin nümayəndələri olan Salyan aşıqları - aşıq Qurbanxan Sadıqov, Aşıq Pənah Pənahov 1950-ci illərdən öz dəstələrinə qarmon ifaçısı da dəvət etmişlər. Sonralar Şirvan aşıq məktəbinin digər nümayəndələri də bunu ənənə kimi qəbul etmiş və öz dəstələrinin tərkibinə qarmon ifaçısı əlavə etməklə çalıb-çağırmışlar. Bu sırada Aşıq Bəylər, Aşıq Şakir, Aşıq Məmmədağa, Aşıq Əhməd, Aşıq Barat, Aşıq Yadulla, Aşıq Yanvar, Aşıq Vəfalı, Aşıq Kamil, Aşıq Alıxan, Aşıq Əsgər, Aşıq Vahab, Aşıq Ağababa, Aşıq Valeh, Aşıq Ramiz, Aşıq Rza və başqalarının adlarını çəkə bilərik.

1950-1970-ci illərdə ustad sənətkar, əməkdar mədəniyyət işçisi Aşıq Pənahın dəstəsinin qarmonçusu, Salyanda yaşamış mahir ifaçı Rza Şıxlarov olmuşdur. Ustad aşıq Qurbanxanın dəstəsində ilk əvvəllər və sonralar Salyan qarmonçalanları çalsa da, 1960-cı illərdə bu heyətin tərkibində mahir ifaçılar A. İsrafilov və Z. Mirzəyev çıxış etmişdir.

Şirvan aşığı Kor Şamil və Aşıq Mürsəl həm də qarmon ifaçısı idilər. El şənliklərinin müəyyən anlarında qarmon çalardılar.

Qarmonun aşıq dəstəsinə gəlməsinin obyektiv səbəbləri var idi. Belə ki, qarmonun efirdə müntəzəm səslənən şux, məlahətli, ecazkar səsi, cazibədar tembri insanların diqqətini özünə cəlb edirdi. Həm də qarmonda ifa olunan xalq oyun havaları, qarmonçalanların bəstələyib radio və televiziyada çaldlqları, “sümüyə düşən” rəqs melodiyaları xoşa gəlib zövq oxşayırdı. Qarmonda səslənən, bu alətin “boyuna biçilən” havaların demək olar ki, əksəriyyəti toylarda dəbə düşmüşdü. Bölgələrimizdə yaşayan qarmonçular yerli xanəndələrin dəstəsində çalır, efirdən eşitdikləri qarmon havalarını toylarda səsləndirirdilər. Xalq qarmonun səsini sevir, xoşlayır, qarmonla efirdən eşitdikləri havalara elə qarmonun səsilə rəqs edirdilər

Qarmonda yaradılan melodiyalar təbii ki, zurna, balaban və sazda lazımi səviyyədə çalına bilməzdi. Odur ki, aşıqlar dövrün, zamanın tələbatına uyğun olaraq öz ansamblalarının tərkibinə qarmon ifaçıları daxil edirdilər.

Bu da bir həqiqətdir ki, XX əsrin 60-cı illərində Azərbaycan bəstəkarlarının müğənnilərimizin ifasında səslənərək populyarlıq qazanan mahnıları nəinki səhnələrin, hətta toyların da repertuarına daxil olmuşdu. Bu mahnılar xalq musiqisi köklərinə, klassik ənənələrə söykənən, muğamlardan qidalanan əsərlər olduğu üçün doğma xalqın ruhuna çox yaxındır. Xususilə Ə. Tağıyevin məşhur müğənni Z. Xanlarovanın oxuduğu, bütün xalq tərəfindən sevilən mahnıları toyların repertuarını bəzəyirdi.

Aşıq dəstələrinin hamısında ənənəvi olaraq xanəndə oxuyurdu. O, qaval çalaraq həm də ritm ifaçısı kimi çıxış edirdi. Xanəndə aşığın oxuduğu bir sıra mahnıların nəqaratını da oxuyurdu. Toylarda tələb olunan mahnıların və təsniflərin oxunması zamanı saz, balaban, zurna ilə aşıq xanəndəsini müşayiət etmək təbii ki, mümkün deyildi. Xromatik Azərbaycan qarmonunun iki oktava yarım səs ardıcıllığı və texniki imkanları mahnı, təsnif və muğamların təqdimi zamanı müşayiət üçün tam imkan yaradırdı.

Şirvan aşıq yaradıcılığında, istərsə də Qərb aşıq sənətində hələ ta qədimlərdən saz və balabanın şox gözəl səslənməsi yaradılıb. Belə müşayiətlə Şirvan aşıq havalarını, istərsə də Qərb aşıq sənəti nümunələrini, havacatları ustalıqla səsləndirərdilər.

Qərb aşıq dəstələrinə qarmon nisbətən geç daxil olsa da, belə ansambllarda da öz layiqli yerini almışdır. Qərb bölgəsinin bütün qarmonçalanları aşıq havacatlarını tamam-kamal, öz boy-biçimində, ustalıqla ifa edirlər. Belə dəstələrdə də saz, balaban və qarmonun çox gözəl, əzəmətli səslənməsi yaranır. Bu işlərdə qarmonun sağ və sol klaviaturasının mühüm

və əhəmiyyətli rolu vardır.

Azərbaycan qarmonunun “si” (in “H”) kökündə olmasındandır ki, aşığın xanəndəsi qarmonun müşayiətilə oxumağa can atırdı. Qey edildiyi kimi, “si” kökündə oxumaq xanəndə üçün əlverişlidir, rahatdır. Qarmonçu həm muğamların, həm də mahnıların ifasında xanəndələri tam sərbəst müşayiət edə bilirdi.

Qarmonun aşıq ansambllarına daxil olduğu dövrdən belə heyətlərdəki zurna və balaban aləti də “si” (in H) tonallığında hazırlanmağa başladı. Beləliklə aşıq dəstələrindəki nəfəs alətləri Azərbaycan musiqisinə “si” kökündə yenidən vəsiqə aldı.

Qarmon ifaçıları bəzi aşıq havalarını ritm müşayiətilə toy-büsatda calaraq onlara yeni ovqat, nəfəs və səslənmə vermişlər. Toylarda və konsertlərdə “Yanıq Kərəmi”, “Ruhani”, Baş sarıtel”, “Baş müxəmməs”, “Koroğlu”, “Misri”, “Ovşarı”, “Kərəm gözəlləməsi”, “Ruhaninin döndərməsi” kimi havalar çalınmışdır və bu gün də çalınmaqdadır.

Tanınan qarmon ifaçıları Aslan İlyasov, Hüseyn Həsənov, Zahid Məmmədzadə, İslam Süleymanov, İsmayıl Gəncəli, Məhərrəm Aviloğlu, Elçin Yunusov və başqaları repertuara aşıq havaları da daxil ediblər. A. İlyasovun ifasında “Yanıq Kərəmi”, Z. Məmmədzadənin ifasında “Baş sarıtel” qrammafon vallarına və radio fonduna yazılmışdır. Bu sətirlərin müəllifi “Kərəm gözəlləməsi”ni diskə yazdırmış, bu melodiyanı İran İslam Respublikasında yaşayan soydaşlarımız arasında təbliğ edərək tanıtmış, son illərdə internet vasitəsilə yaymışdır.

Zaman-zaman xalq qarşısında çıxış edib milli musiqimizin inkişafına təkan verən bacarıqlı, çox istedadlı ifaçılarımız ölçüyəgəlməz səviyyə ilə xalqa xidmət etmişlər. Hər bir ifaçı öz fərdi xüsusiyətləri ilə seçilmiş, öz ifa çalarları və bədii dəyəri ilə mili musiqimizi zənginlədirmişdir. Zaman, dövr dəyişdikcə ifaçılar alətə məxsus imkanlardan bacarıqla istifadə edərək musiqi janrlarının bütün zənginliklərini qorumaq və inkişaf etdirməklə bərabər, yenilik gətirmiş, təkmilləşmə işlərinə böyük önəm vermişlər. Əsas məqsəd və vəzifə Azərbaycan xalq musiqisini yüksək səviyyədə inkişaf etdirmək olmuşdur.

Qarmon da Azərbaycan xalq çalğı alətləri arasında öz yerini tapıb xalq musiqimizin bütün janrlarında, o çümlədən rəqs musiqisi, xalq mahnıları, aşıq sənəti və muğamlarda özünü tam təsdiq etmişdir.

**3.2. “Qarmon muğam ifaçılığında”** adlı mövzuda qarmon ifaçılığı sənətinin bu sahədəki geniş fəaliyyətinə toxunulur.

Muğam qədim Şərqin ortaq musiqisi sayılır. Bu zəngin musiqi bütün tarixi dövrlərdə şərqlilərin mənəvi dünyasını təmin etmişdir. Muğam yaran-

dığı zamandan indiyə qədər vokal-instrumental və instrumental formada inkişaf etmişdir. Muğam qədim dövrdən xəbər verən, uzaq və yaxın keçmişimizi özündə əks etdirən, bu günümüzlə səsləşən və gələcəyə addımlayan musiqi janrıdır.

Orta əsrlərdə Şərqin böyük dühaları muğamın hikməti, təsiri barədə fikirlər söyləmiş, onun fəlsəfi anlamını açmış və risalələr yazmışlar. Əl Kindi, Əbunəsr Fərabi, İbn Sina, Cəlaləddin Rumi, Nizami, Nəsimi, Səfiyəddin Urməvi, Əbdülqadir Marağai, Hümam Təbrizi, Qütbəddin Şirazi, Əbdüləziz Marağalı, Əbdürrəhman Cami musiqi, muğam haqqında məlumat vermiş, qiymətli fikirlər söyləmişlər.

Azərbaycan və Şərq musiqişünasları, eləcə də dünyanın bəzi ölkələrinin alimləri muğamların yaranma və tarixi şəraiti, onların dəyəri, mahiyyəti, insan hisslərinə, duyğulara təsiretmə xüsusiyyətləri və s. barədə araşdırma aparmış, elmi əsərlər və risalələr yazmışlar. Bütün bunlar bu gün də musiqişünaslıq elmimiz qarşısında dayanan ən ümdə məsələlərdəndir.

Əlbəttə, bu qənaətə gəlmək olar ki, Ulu Tanrı kainatın sirrlərini özündə birləşdirən, hikmət, sehir dolu bu musiqini seçdiyi millət olan biz türklərə bəxş etmişdir. Bütün bu fikirlər haqqında Azərbaycanın mütəfəkkirləri və musiqişünaslarının bigiləri yetərincədir.

Muğam toy şənliklərində, səhnələrimizdə, televiziyalarımızda, radiomuzda və internet səhifələrində səslənir. Bu janr instrumental ifaçılığımızda mövcud olmaqda, daim inkişaf etməkdə və yaşamaqdadır. Muğam çalğı alətlərimiz tar, kamança, ud, qanun, balaban, ney və zurnada, həmçinin Avropa alətlərindən musiqimizə daxil olmuş skripka, klarnet, gitara və qaboyda gözəl səsləndiy kimi, qarmonumuzda da məzmunlu, nizamlı, ilhamlı və zənginçalarlı səslənir. Hələ XIX əsrin sonlarında, XX əsrin əvvəllərində ifaçılar diatonik qarmonlardan istifadə edərkən çətinliklə olsa da, belə alətlərin imkanlarına uyğun muğam hissələri çalırdılar. Qarmon təkmilləşdirilib tam peşəkar hala gətirildiyi dövrdən ifaçılarımız bu alətlə muğamlarımızı daim xüsusi bacarıq və ürəklə çalaraq xalqa sevdirə bilmişlər. İstər instrumental şəkildə, istərsə də xanəndələrin müşayiətində qarmon sənəti çox dəyərli və əhəmiyyətli xidmət etmişdir. Əksər böyük xanəndələrimiz bu alətin müşayiətilə muğam oxumağa meyl edib, maraq və həvəs göstəriblər. Xanəndələr qarmon sənətinə məhəbbət bəsləyiblər. El şənliklərinin, toy-büsatın, musiqi qruplarının əsas, aparıcı çalğı aləti olan qarmonun səs çalarları, sağ klaviaturadakı ifanı sol gövdənin iki cərgəli müşayiət səslərindən istifadə edərək tonika saxlaması, alətin muğam ifası və müşayiəti xanəndələrin nəzər-diqqətini cəlb etmişdir.

Səhnələrdə, televiziyada və radioda xanəndələr xalq çalğı alətləri ansambllarının müşayiətilə muğam dəstgahlarını oxuyarkən ənənəvi qaydada onları tar-kamança müşayiət etsə də, bəzi şöbələr və guşələr qarmonçalana həvalə olunur.

Qarmonçalanlar instrumental muğam ifaçılığında xüsusi fəallıq, geniş fəaliyyət və peşəkarlıq göstəriblər. Əhəd Əliyevdən başlanan qarmon məktəbinin nümayəndələri səhnələrdə və el şənliklərində muğamları solo ifaçı kimi tamam-dəstgah halında çalıblar. Mahir qarmonçalanların ifasında Azərbaycan muğamları radionun fondu üçün lentlərə yazılaraq muğam konsertlərində səsləndirilmiş, canlı çıxışları televiziya ilə yayımlanmışdır. Qarmon orta ixtisas və ali təhsil müəssisəsində tədris olunduğu üçün muğam siniflərində öyrədilən muğamlar qarmon sənətinin bu janrda inkişafına stimul olmuşdur. Təhsili başa vuran qarmon ifaçıları muğamları daha mükəmməl mənimsəmiş olurlar. Bütün bunlar Azərbaycan qarmon ifaçılığında muğamın geniş təşəkkül tapmasına dəlalət edir.

Qeyd edildiyi kimi mili qarmon sənəti mükəmməl forma aldığı andan ilk olaraq solo alət kimi el havalarının, ənənəvi musiqinin ifasında böyük rol oynamışdır. Solo ifalarda yalnız xalq rəqs melodiyaları deyil, hənçinin muğamlar da özünəxas şəkildə çalınmışdır.

Azərbaycan muğam sənətinin həmişəyaşarlıq qazanması, davamiyyətli inkişafı, daha geniş şəkildə yayılması üçün zəngin ifaçılıq ənənələrimiz formalaşmışdır ki, bu sahədə instrumental ifaçılığın və onun ayrılmaz hissəsi olan qarmon sənətinin rolu vardır.

**3.3. "Rəqs melodiyaları və folklor nümunələri qarmon ifasında".**

Rəqs sənətimiz ta qədim zamanlardan mövcuddur. Qobustandakı qayaüstü rəsmlər də "Yallı"larımızın qədimliyindən xəbər verir. "Cəngi"ləri, "Yallı" ları o dövrün nəfəs və zərb alətləri müşayiət etmişdir.

Şah saraylarında rəqqasələr dövrün çalğı alətləri ud, çəng, bərbət, ney və digər musiqi alərlərilə ifa olunan melodiyaların sədası altında rəqs edirdilər. Azərbaycan xanlıqları dövründə (XVIII-XIX əsrlər) onların saraylarında da rəqqasələr olmuş və tədbirlərdə rəqslərilə məclisdəkiləri əyləndirmişlər. Bəylərin qonaqlıq və ziyafət məclislərində də rəqqas və rəqqasələrin çıxışı məclisləri rövnəqləndirir, gələn qonaqlar arasında da qol qaldırıb oynayanlar olurdu.

Şamaxıda Mahmud ağanın musiqi məclislərində sazəndə dəstələrinin, xanəndələrin sənət nümayişi ilə bərabər rəqqasələrin çıxışı da böyük maraq oyadırdı. Belə məclislərdə tar-kaman, qaval və ya balaban üçlüyü (solist və dəmkeş balabançı, qavalçalan və ya nağaraçalan) lirik melodiyaları və oyun havalarını çalırdılar. Oyun havaları çalınarkən bu çür üçlüklərə bəzən ritm

aləti kimi qoşa-nağara ifaçısı da qoşulurdu.

Ta qədim zamanlardan bu yana xalqımızın bayramlarında, toy-büsatında rəqslərimiz özünə mühüm yer tutmuşdur. Cəngilər, yallılar, zorxanalar, halaylar kütləvi rəqslərimizdirsə, el şənliklərimizdə, toylarımızda oyun havalarımız əhəmiyət kəsb edərək adət-ənənəmizə böyük şadyanalıq və şux ovqat gətirmişdir. Əksər tədbirlər açıq havada, təbiət qoynunda, geniş meydanlarda keçirildiyi üçün burada uca, möhtəşəm, gur səsə malik musiqi alətlərindən istifadə olunurdu. İlk öncə şeypurlar və bu tip alətlərə yer verilirdi. Şənliklərdə zurnaçılar dəstəsi çıxış edirdi. Belə dəstələrin tərkibi iki zurnaçı; usta və dəmkeş (müşayiətçi) və çomaq-çubuqla çalınan nağara ifaçısından ibarət olurdu. Zurnaçı dəstələrinin çaldığı havalar möhtəşəmlik yaradırdı. Saraylarda, evlərdə keçirilən şənliklərdə isə sazəndə dəstəsi (tarzən, kamança ifaçısı və qavalçalan xanəndə) və balabançılar dəstəsi çal-çağır yaradırdı.

Qarmon ilk əvvələr qadınların sevimli məşğuliyyəti, könül sirdaşı, xoşladıqları musiqi aləti olduğu üçün onların evlərdə keçirdikləri hər hansı şadyana tədbirlərin, həmçinin "hənayaxdı", "paltarbiçdi" (paltarkəsdi və ya qız toyu da adlanır) məclislərinin yaraşığı, bəzəyi olmuşdur. Qız toylarında, qadın mərasimlərində mütləq mənada qadın qarmonçu və onu müşayiət edən qadın qavalçalan çıxış edirdi. Qavalçalan bəzən xanəndəlik də edir, belə baçarığı olmayanda, tədbir iştirakçıları olan qadınlardan səsi olanlar da oxuyub şənlənirdilər.

Peşəkar qarmon ifaçılarımız yetişdikdən sonra toy-nişan məclislərinin əsas musiqiçiləri həm də qarmonçalanlarımız oldu. Onları da qavalçalan müşayiət edir, bəzi hallarda qoşa-nağaraçalandan da isifadə oluurdu. Əslində qarmon-qaval çalğısında qoşa-nağara ilk dəfə qadın ifaçıların yanında olub. Belə ki, bəzən gur məclislərdə qadın qavalçalan belə hallara fiziki cəhətdən dözümsüz olduğu üçün qoşanağaraçıya ehtiyac yaranırdı.

Qarmon sənətkarlarımız meydana çıxdıqda onlar xalq havalarını, muğamları çalaraq toy-nişanda, konsertlərdə fəaliyyət göstərirdilər. Bu sənətin peşəkar səviyyəsi artıb yüksəldikcə mahir ifaçıların özləri rəqs havaları bəstələyərək meydana çıxar və dəvət olunduqları bütün tədbirlərdə çalıb, zəngin repertuar yaradardılar. Həmçinin onlar ilk əvvəllər öz melodiyalarını radio, Azərbaycanda televiziya yarandığı zamanda bu yayım ocağı vasitəsilə üzə çıxarıblar.

Azərbaycan radiosunun fondunda xeyli sayda rəqs melodiyaları vardır ki, bunları qarmon ifaçılarımız bəstələmişlər. Bu sırada T. Dəmirov, M. Ağayev, A. Abbasov, İ. Coşqun, M. Vəlixanlı, A. İsrafilov, Z. Mirzəyev, T. Teyyuboğlu, A. Sadıqov, H. Haqverdiyev, F. Sadıqov, V. Şıxıyev,

A. İlyasov, H. Həsənov, Z. Məmmədzadə, X. Cəfərov kimi sənətkarların adını hörmətlə çəkirik. Sənətə yeni gələn gənc qarmonçalanlarımız mahir sənətçilərimizin yaratdığı zəngin və qiymətli xəzinədən istifadə edirlər.

Bəstələnən rəqs havalarının quruluşunu diqqətlə araşdırdıqda hiss olunur ki, zaman dəyişdikcə bu melodiyaların özünün və ritmlərin formasında, çümlələrin ardıcıllığında, bütünlükdə isə qarmonun səslənməsində müəyyən dərəcədə fərqlər və inkişaf nöqtələri vardır. Təbii ki, hər bir qarmon ifaçısı öz təbindən, sənət ilhamından süzülüb gələn fikirlər əsasında yaratdığı melodiyaları ortaya çıxarıb və lentlərə yazdırıb. Burada tədricən qarmon sənətində əmələ gələn, formalaşan texniki imkanların, cəld çalğının yaranmasının, inkişafın, yeni ladlara toxunma, laddan lada keçid məsələlərinin də mühüm rolu olmuşdur.

Dünyanın dörd bir yanına səpələnmiş soydaşlarımızın evlərində qarmonda ifa olunan oyun havalarının, bu doğma musiqinin video və audeo diskləri vardır. Qəriblikdə yaşayan bu insanları qarmonun çox doğma , füsünkar, ecazkar səsi ovundurur, rəqs melodiyaları onlara şən ovqat bəxş edir. Şadyana tədbirlərdə həmin disklərdəki melodiyalardan istifadə edərək şənlənir, qol götürüb oynayır və özlərini vətəndə, doğmaların arasında hiss edirlər.

Azərbaycanda yaşayan bütün xalqların qarmon ifaçıları vardır. Onlar da Azərbaycan qarmonu çalır və toy-bayramlarda mili qarmon havalarımz səslənir.

Azərbaycanın folklor sənəti həddən artıq zəngindir. Bunu folklor musiqimizə də aid edə bilərik. Musiqişünas alimlərimiz folklor janrını da araşdıraraq məntiqi nəticələr çıxarmış, elmi əsərlərilə öz fikirlərini bildirmişlər. Qeyd olunmalıdır ki, qarmon da folklor aləti sayıla bilər. Əslində bu alət ilk əvvəllər sadə quruluşlu olaraq Azərbaycan musiqisinə daxil oduğu anlardan elə folklor musiqimizin bir alətinə çevrilmişdir. Sonralar inkişaf dövrü keçib təkmilləşərək yenə də el-oba şənliklərində, xalq bayramlarında, halay nəğmələrində çalınaraq, özfəaliyyət rəqs kollektivlərinin tərkibində səslənərək folklor musiqimizə xidmət etmişdir.

XIX əsrin sonlarından başlayaraq Şuşada, Bakıda və digər şəhərlərdə hazırlanıb ortaya çıxarılan folklor tamaşalarında qarmon aparıcı çalğı aləti olaraq qavalın müşayiətilə özünə mühüm yer tutmuşdur. Bu tamaşalar əsasən evlərdə, nisbətən iri, geniş zallarda təşkil olunurdu. "Fincan-fincan", "Qıtqılıda", "Yalələm", "Dolma-dolma", "Kosa-gəlin" tamaşalarında mahnılar oxunur, tapmaca, bayatı, məzəli bəndlər söylənir, rəqs edilirdi. Qarmon ifaları belə oyunlar və tamaşalara xususi rövnəq verirdi. Qarmon və qaval ifaçıları əksər hallarda "Şalaxo" (Şələqoy) qaraçı tamaşasında da iştirak edirdilər.

Məşhur müğənni, xalq artisti Baba Mahmudoğlu 1979-cu ilin sentyabr

ayında Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsi nəzdində "Dastan" folklor ansambl yaradarkən qədim simli, nəfəs və zərb alətlərilə bir sırada qarmonu da səsləndirir bə bu alətin imkanlarından bacarıqla istifadə edirdi. "Dastan" folklor ansamblın musiqi rəhbəri əksər musiqi alətlərimizin ifaçısı Abbasqulu Nəcəfzadə idi. Qarmon ifaçıları Adil Zülfüqarov, İlqar Kərimov və Şakir Qasımov olmuşdur. "Dastan" bir folklor ansambl olaraq bu janra aid xeyli sayda musiqi meydana çıxarmış, lentlərə yazaraq radio fonduna və televiziya çəkilişlərinə təqdim etmişdir. Mahnılar çalınıb oxunarkən ney, tütək, saz, zurna və digər alətlərə solo ayrılırdı. Elə mahnılar var ki, bu zaman melodiyanın müəyyən hissəsini və ya muğamı qarmonla səsləndirirdilər. Bu ansamblın tərkibində qarmon ifaçıları əhəmiyyətli dərəcədə fəaliyyət göstərirdilər. Böyük səhnələrdə, filarmoniyada, respublika sarayında, rayon yerlərində verilən konsertlərdə qarmon aparıcı alətə çevrilirdi. Bunun isə obyektiv səbəbləri o idi ki, qədim alətləri geniş səhnələrdə, böyük konsert müəssisələrində səsəndirmək çətin olurdu.

"Dastan"ın ilk heyəti 1989-cu ilin yayında fəaliyyətini tamamlayır, həmin ilin sentyabrında isə yeni heyət yaranır və ansambl 1992-ci ilin sonuna qədər fəaliyyət göstərir. Ansamblın musiqi rəhbəri ilk əvvəllər tarzən Ramiz İsmayılov, sonra isə Əhsən Rəhmanlı olmuşdur. Folklor nümunələrinin işlənib hazırlanmasında Ə. Rəhmanlının xüsusi rolu var idi. Həmin dövrdə də ansambl tərkibindəki müxtəlif alətlərin sololarından əlavə qarmonda da öz səs və texniki imkanlarına uyğun olan sololar çalınırdı. İstər muğam parçaları, istərsə də bəndlərarası cümlələrdə qarmonun tutumlu, təsirli səsilə folklor mahnılarına, aşıq havalarına gözəllik və yüksək peşəkarlıq verilirdi. Nümunə kimi "Sarı bülbül", "Şirvanın yolları" və digər xalq mahnılarını, "Şəhrəbanı", "Kərəm gözəlləməsi" və s. aşıq havalarını göstərmək olar. "Dastan" bütün fəaliyyəti boyu instrumental musiqiləri də işləyərək lentlərə yazıb fondlara vermiş, televiziyada səsləndirmişdir.

Tərkibində qarmon olan daha bir folklor ansambl 1984-1990-cı illərdə fəaliyyət göstərmişdir. "Tello" ansamblı Sumqayıt Musiqi Texnikumunda səs-muğam sinfinin müəllimi Səlim Ağayarovun rəhbərliyi altında yaranmış və geniş yaradıcılıq işi ilə məşğul olmuşdur. Bu ansamblın ilk qarmon ifaçısı Mais İlyasov, sonra isə Fuad Ramazanov olub. Ansambl müntəzəm olaraq televiziyada və Sumqayıtın mədəniyyət, tədris, səhiyyə və sənaye müəssisələrirində konsertlər verirdi. Qədim xalq oyunu "Teşti" əsasında hazırlanan eyniadlı mahnı, "Bilay" və s. mahnıların hər birində qarmonun səslənməsi yaxşı təsir bağışlayırdı. "Tello"nun keçmiş SSRİ məkanında və xarici ölkələrdəki çıxışları maraqla qarşılanırdı.

Rəhbəri ustad tarzən Sidqi Mustafayev olan "İrs" folklor ansamblın tərkibində qarmon ifaçısı yalnız 2004-2005-ci illərdə olub. Həmin ifaçı, gənc qarmonçalan Kənan Əsədov ansamblda bacarıq nümayiş etdirmişdir.

Adları qeyd olunan folklor ansamblların tərkibində milli qarmonun olması xüsusi əhəmiyyət kəsb edirdi.

Azərbaycanda bir sıra özfəaliyyət xalq rəqs ansambllarının müşayiətçisi, aparıcı qüvvəsi qarmon aləti sayılır. Misal olaraq Lənkəran rayon mədəniyyət evinin "Şənlik" xalq rəqs ansamblını göstərmək olar. Böyük bir dövr ərzində bu ansamblın tərkibində ayrı-ayrı qarmonçular çalışmışlar.

Uzun illərdir ki, respublikamız məkanında fəaliyyət göstərən özfəaliyyət və peşəkar rəqs kollektivlərində qədim ənənələrə söykənən rəqslərimizə quruluşlar verilir. Bir-birindən maraqlı, xalqımızın həyatını, məişətini və qədim tarixi ənənələrini özündə əks etdirən belə folklor rəqsləri müşayiət edən qarmon ifaçılarımızdır.

1936-cı ildə Azərbaycan Dövlət Filarmoniyası yaradılan zaman Ü.Hacıbəylinin təşəbbüsü və birbaşa iştirakı ilə Dövlət xoru və rəqs ansamblı təşkil edilmiş və musiqi heyətinin tərkibinə qarmon ifaçısı da dəvət olunmuşdur. 1938-ci ildə xor və rəqs qrupu birləşdirilərək Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı yaradılmışdır. O zamandan bu günə qədər həmin ansamblın müşayiətçiləri arasında qarmonçular da çalışmaqdadırlar.

1970-ci ildə Azərbaycan Dövlət Rəqs ansamblı yaranır. Burada da milli alətlərlərin tərkibində aparıcı qüvvə qarmon sənətidir. Bütün rəqs ansambllarımızda kütləvi rəqslərə, folklora xüsusi yer verilir. Tədqiqatın bu mövzu əsasındakı nəticədən də görünür ki, bütün folklor rəqs quruluşlarının müşayiətində qarmonun mühüm rolu vardır. Bunlar bir daha göstərir ki, qarmon Azərbaycan mədəniyyətinin və musiqi incəsənətinin bütün sahələrində özünə yer almışdır.

**3.4. "Qarmonun Azərbaycan və xarici ölkə bəstəkarları əsərlərində və Azərbaycan kinofilmlərində istifadəsi"** adlanan mövzuda da maraqlı faktlar vardır. Milli alətlərimiz tar, kamança, balaban və qanunda bəstəkar əsərlərinin səhnələrdə, televiziyada və radioda səslənməsi qarmon ifaçılığı sənəti üçün də bir örnək, nümunə olmuşdur. İstər Azərbaycan bəstəkarlarının, istərsə də xarici ölkələrin bəstəkarlarının əsərlərindən nümunələr milli alətlərimizin ifasında fortepianonun və ya xalq çalğı alətləri ansamblı və orkestrinin müşayiətilə təqdim olunur. Belə ifalar milli radiomuzun fonduna və televiziyanın konsert proqramlarına daxil edilir.

Azərbaycan qarmon sənəti XX yüzilin II yarısında yüksəliş dövrünü yaşamışdır. 70-ci illərin əvvəllərində, 80-90-cı illərdə qarmon ifaçılarımız

artıq bəstəkar mahnılarına da müraciət edərək nailiyyətlərini daha da artırmışlar. Əlbəttə bütün bunlar qarmonçalanlarımızın fəallığından, irəli addımlamasından, sənətə sevgi və məsuliyyətlə yanaşmasından, məhsuldar çalışaraq yüksək peşəkarlığa yiyələnməsindən irəli gəlirdi. Təkmilləşən milli qarmonumuzun texniki imkanlarının tam yerini almasının da bu işdə mühüm əhəmiyyəti vardır.

Azərbaycan bəstəkarlarının əsərlərinin ifası zamanı qarmonçalanı nağaraçalandan əlavə fortepiano ifaçısı da müşayiət edir. Xarici ölkə bəstəkarlarının əsərləri çalınarkən yalnız fortepiano müşayiətindən istifadə olunur. Cəsarətlə deyə bilərik ki, bəstəkar əsərləri Azərbaycan qarmonunda tam peşəkar, dolğun, mükəmməl və səviyyəli səslənir. Bu yönümdə ilk cığır açan A. İsrafilov və Z. Mirzəyev olmuşdur. A. İsrafilov ilk dəfə olaraq A. Rzayevanın "Pəri" mahnısını ifa etmiş, əsərin spesifik cəhətlərini, məzmununu, lirizmini, milli ladlar əsasındakı quruluşunu tam dolğun, qarmonun çazibədar tembrinə uyğun şəkildə melizmlərlə verə bilmiş və və əsəri qarmona xas olan formada, Azərbaycansayağı təqdim etmişdir. İstər o, istərsə də Z. Mirzəyev qeyd etdiyimiz xüsusiyyətləri öz fərdi üslubları ilə, hər əsərə ürək qoyaraq, bəzəklərlə, bir növ "qarmonlaşdıraraq" çalmış və melodik baxımdan incə çalarlar qataraq xalqa sevdirmişlər. A. İsrafilovun ifa etdiyi digər mahnılar bunlardır: - Ə. Tağıyev "Sədaqətim var", "Sənsən həyatım mənim", T. Quluyev "Başına dolanım, ay qız", "Qızıl üzük", C. Cahangirov "Alagöz", E. Sabitoğlu "Payız gəldi", F. Şücəddinov "Mən səni axtarıram", M. Bəşirqızı "Körpə balam dil açır".

A.İsrafilov konsertlərdə, şənliklərdə, eləcə də qonşu ölkələrə səfərlərdə türk, gürcü, moldav və Dağıstan xalqlarının melodiyalarını yüksək bacarıqla çalmış, dinləyici və tamaşaçıları Azərbaycan qarmonunun özünəxas səs çalrları, texniki imkanları ilə tanış etmişdir.

Z. Mirzəyevin ifasında radio fonduna qəbul olunan, televiziya konsertləri üçün çəkilişlər edilən əsərlər arasında S. Rüstəmovun "Qurban adına", T. Quluyevin "Onu bağışlamaq olarmı" kinofilmindən "Arzular", T. Bakıxanovun "Yaylaqların mahnısı", "Xatirə", "Səbr eylə", "Sevən könül", simfonik orkestr üçün 3 hissəli konsert, S. Ələsgərovun "Vətənimdir", V. Adıgözəlovun "Qərənfil", A. Məlikovun "Məhəbbət əfsanəsi" baletindən "Rəqs" kimi əsərlər vardır.

T. Bakıxanovun "1 saylı 3 hissəli konsert-simfonik əsərində Z. Mirzəyev ilk solist qarmon ifaçısı kimi çıxış etmişdir. Əsər 1999-cu ildə fortepiano müşayiətilə radio fondu üçün lentə alınıb. "Konsert" 2001-ci ildə əməkdar incəsənət xadimi Y. İmanovun dirijorluğu ilə simfonik orkestrin

ifası və Zakirin solistliyi ilə Azərbaycan televiziyasında nümayiş etdirilmişdir. Həmin çəkiliş fondda qorunur.

Simfonik əsərin qarmon ifası ilə sinfonik orkestr tərkibində səslənməsi qarmon ifaçılığının inkişafından, çox böyük uğurundan xəbər verir. Məlum olur ki. qarmonumuz artıq bütün alətlərlə uzlaşır, birlikdə həmahəng səslənir, nəinki xalq çalğı alətləri orkestrinin, hətta simfonik orkstrin tərkibində də səslənə bilir.

Tədqiqat işində musiqi irsimizə möhkəm tellərlə bağlı olan, onun ayrılmaz hissəsini təçkil edən qarmon sənətinin yüksəlişi, nailiyyətləri, inkişaf məsələləri açılır, mürəkkəb, çətin ifaçılıq texnikasına, yeni üsullara yiyələnərək sənət nümayiş etdirən qarmonçalanların yaradıcılıq keyfiyyətlərindən danışılır. Qeyd olunur ki, Z. Mirzəyev və A. İsrafilovdan nümunə götürərək bəstəkar əsərlərini ifa edən xeyli sayda qarmonçalanlar yetişmişdir. Bu sırada xalq artisti, virtuoz sənətçi Ənvər Sadıqov, Hüseyn Həsənov, Xeyrulla Dadaşov, Baxışəli Əliyev, Manaf Rza, Xanlar Cəfərov və Aydın Əliyevin adı çəkilir.

Bu bölmədə bir incə mətləbə də toxunulub. 1984-cü ildə Bakıda Ü. Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının (hazırda Bakı Musiqi Akademiyası) binasında keçirilən “Xalq şalğı alətləri ifaçılarının respublikalararası müsabiqəsi” zamanı musiqiçilər arasında konservatoriyanın vokal sinfi üzrə III kurs tələbəsi Hüseyn Həsənov da var idi. O, müsabiqədə qarmon ifaçısı kimi çıxış edirdi. Hüseyn Ü. Hacıbəylinin “Tar ilə orkestr üçün fantaziyası”nı, Motsartın “Türk marşı”nı, S. Raxmaninovun “Polka”sını və Q. Dinikunun “Mart yallısı”nı hazırlamışdı.

Müsabiqədən əvvəl keçirilən yoxlamada (dinləyiş) münsiflər heyətinin üzvləri H. Həsənovun qarmon ifasını çox bəyənsələr də o, tədbirə buraxılmamışdı. Görkəmli bəstəkar, xalq artisti, professor S. Ələsgərov bildirmişdi ki, ifaçının çaldığı alət Azərbaycan çalğı aləti deyil, milli mənsubiyyəti məlum olmayan bu aləti neçə və hansı adla təqdim edib tanıdaq?

Hörmətli bəstəkarımız əvvəllər bu fikirdə olsa da, bu alətin spesifik cəhətləri, xüsusilə tədris məsələləri ilə maraqlanıb məntiqi nəticəyə gəldikdən, qarmonun xalqa doğma olduğuna, ifa imkanlarına bir daha inandıqdan sonra qarmon üçün xüsusi olaraq “Skerso” və “Lirik pyes” yazmışdır. Bu da bir daha qarmonun Azərbaycan musiqisində daimi yeri olduğunu təsdiq edir.

Çəkinmədən deyə bilərik ki, Azərbaycanın çox zəngin kino musiqisi vardır. Əksər böyük bəstəkarlarımızın yaradıcılığında kino musiqisi özünə mühüm yer alıb. Musiqi kinofilmlərin ayrı-ayrı səhnələrinin daha təsirli alınmasına, bütünlükdə isə filmin ana xəttinin və ideyasının açılmasına

güclü təsir göstərir.

Bir sıra filmlərdəki müəyyən səhnələrdə Azərbaycan qarmonunun ahəngdar səsindən yerli-yerində istifadə olunması bir daha bu alətin milli mədəniyyətimizdəki əhəmiyyətindən xəbər verir. Bəzi səhnələrdə ifaçının özü göstərilməklə, əksər hallarda isə qarmonda ifa olunan melodiyanı səsləndirməklə bu ifaçılıq sənətindən istifadə olunur.

Qarmon sənətindən ilk dəfə Ü. Hacıbəylinin "O olmasın, bu olsun" operettası əsasında C Cabbarlı adına "Azərbaycanfilm"in 1956-cı ildə çəkdiyi eyni adlı musiqili bədii filmin toy səhnəsində istifadə edilir. Rüstəm bəyin qızı Gülnaz xanımın toyunda qadın musiqiçilərin çalıb-oxumaları maraqlı səhnədir. Qarmonçu, qavalçalan xanəndə və rəqqasə çıxış edir. Qarmonçalanın ifa etdiyi oyun havalarına rəqqasə və digər toy iştirakçısı (aktrisa Münəvvər Kələntərli) rəqs edir. Filmin sonundakı bu toy səhnəsində qarmon ifaçısı Kübra Əbilova, xanəndə Tükəzban İsmayılova və "Qıdqılıda" havasına rəqs edən xanım məşhur rəqs ustası, xalq artisti, baletmeyster Əminə Dilbazidir. Xanəndə xanım qarmonun sədaları ilə "Xaric-segah" muğamının zil pərdələrini çox gözəl, orijinal və təsirli oxuyur. Qeyd etməliyik ki, həmin toy səhnəsi filmin uğuruna və baxımlı olmasına xidmət edir.

Qarmonçalan K. Əbilova daha bir filmdə, Əjdər İbrahimovun rejissorluğu ilə "Mosfilm"in çəkdiyi "Qəribə adam" bədii filmində də bir epizodda çəkilmiş və sevimli qarmonunu səsləndirmişdir.

Digər kino əsərlərimizdə ; "Onu bağışlamaq olarmı?", "Görüş", "Böyük dayaq", "Ad günü", "Bəyin oğurlanması", "Alma almaya bənzər", "Yuxu", "Güllələnmə təxirə salınır", "Bağlı qapı arxasında", "Kişi sözü", "Lətifə", "Təngə gətirdi", "Sonqulunun məhəbbəti" filmlərində qarmon melodiyaları səsləndirilir.

Milli musiqimizin və onun ayrı-ayrı sahələrinin inkişafı baxımından mühüm rol oynayan Azərbaycan qarmon sənəti milli kinomuzda da öz izini qoymuş, solo alət kimi tamaşaçı zövqünə təsir etmişdir.

**IV fəsil "Qarmonun tədris məsələləri"** başlığı altında olaraq həmin peşənin tədrisi məsələlərini özündə əks etdirir.

Araşdırmalar əsasında qeyd edə bilərik ki, XIX əsrin sonlarında İçərişəhərdə Seyid Həsənin evində qarmon həvəskarlarına sənət öyrətməsindən başlayan tədris sonralar digər sənətkarların da evində davam etdirilmişdir. Bu ifaçılıq sənəti də ustaddan şagirdə ötürülməklə müəyyən mərhələləri adlayıb keçmişdir.

XX əsrin əvvəllərində Şuşada Kərbəlayi Lətif Hüseyn oğlu və Abutalıb Yusifov da evində, 1920-ci illərdə isə Azərbaycan SSR Xalq Komis-

sarları Sovetinin Şuşada açdığı ilk musiqi məktəbində dərs deyərək qarmonun ifa qaydalarını öyrətmiş, xalq musiqisini və muğamları tədris etmişlər.

Əhəd Əliyevin ifaçılığı ilə yaranan qarmon məktəbi xüsusi əhəmiyyət daşımışdır. Onun mənzilində yetişdirdiyi davamçıları da mükəmməl sənətkar kimi tanındıqdan sonra hər biri müəllimlik fəaliyyətində olmuşlar. Mənzil şəraitində qarmon tədrisi yalnız Bakıda və Şuşada deyil, Gəncə, Ağdam, Salyan, Lənkəran, Ordubad və Naxçıvamda da fəaliyyət göstərmişdir.

Xalqımızın sevimli musiqi alətinə cevrilən və xalq çalğı alətləri sırasında özünü təsdiq edən qarmonun tədrisi barədə musiqi xadimləri, musiqişünaslar və musiqi ictimaiyyətinin görkəmli nümayəndələri daim düşünmüşlər. 1950-ci illərin əvvəllərindən Bakının mədəniyyət evləri və saraylarında fortepiano, bayan, akkordeon, klassik gitara, klarnet, tar, kamança, nağara tədrisilə yanaşı qarmon kursları da fəaliyyət göstərir. Belə kurslar ilk əvvəllər 2-3, sonralar isə 5 il üçün nəzərdə tutulur. Həmin dövrdə Bakıda Mərkəzi Pioner və Məktəblilər Evində də müxtəlif musiqi alətlərilə bərabər qarmon dərnəkləri də açılır.

Bütün kurslarda təhsilli, diplomlu, ixtisaslı kadrlar çalışsalar da, qarmonun tədrisi üçün belə kadrlar yox idi. Bu işi aparmaq üçün peşəkar xalq ifaçıları dəvət olunurdular. Bəzən də qarmon dərsini tar, fortepiano, kamança ixtisası üzrə müəllimlər aparırdılar. Səbəb o idi ki, qarmon ixtisası üzrə kadrlarımız hələ yetişməmişdi, çünki bu ixtisasın məktəbləri açılmamışdı.

Neçə illərdən sonra Azərbaycanın əksər rayon mərkəzlərindəki mədəniyyət sarayları və evlərində, həmçinin pionerlər və məktəblilər evində (hazırda uşaqların və gənclərin yaradıcılıq mərkəzi) qarmon dərnəkləri açılmışdır. Əyalətlərdə ad-san qazanmış qarmonçalanlar bilik və bacarıqlarını sənət həvəskarlarındam əsirgəməmişlər.

1950-ci illərin sonları və 1960-cı illərin əvvəllərindən Bakı şəhərinin bir-neçə uşaq musiqi məktəbində qarmon sinifləri açılmışdır. Bu sənət üzrə təhsil almaq istəyənlərin sayı artdıqca Mədəniyyət Nazirliyi əksər uşaq musiqi məktəblərində qarmon sinifləri yaratmışdır. Qarmonun tədrisi işi tədricən rayonlardakı uşaq musiqi məktəblərində də davam etdirilmişdir.

Mədəniyyət Nazirliyinin avqust 1958-ci il qərarına əsasən Gəncə şəhər 1 saylı uşaq musiqi məktəbində qarmon sinfi açılmışdır. Fənn üzrə ilk müəllim Abbasəli Vəliyev olmuşdur. Ağdam şəhər 1 saylı uşaq musiqi məktəbində də qarmon sinfi 1958-ci ildən fəaliyyət göstərmişdir. İlk müəllimlər Yusif Yusifov və Yelmar Zeynalov pensiya dövrünə qədər burada çalışmışlar. Belə xalq sənətkarları dəvət olunduqları məktəblərdə şagirdlərə xalq mahnıları, oyun havaları, muğamlar öyrədirdilər. Onların musiqi təhsili, not

savadı olmadıqları üçün not əsərləri keçə bilmirdilər. Odur ki, istər paytaxt şəhərdə, istərsə də əyalətlərdəki uşaq musiqi məktəblərinin əksəriyyətində tar, kamança və digər ixtisas müəllimləri qarmonu da tədris etməli olurdular.

1957-ci ildən başlayaraq Bakı Kitabxanaçılıq Texnikumunda (sonralar Bakı Mədəni-Maarif Texnikumu, 2011-ci ildən Bakı Humanitar Kolleci adlanır) klub işçisi kadrlarının hazırlanmasına başlanarkən, musiqi bacarığı, istedadı olan gəncləri seçib qəbul edərkən, qarmon ifaçıları da qəbul olunur, onlara not təhsili verilirdi. Beləliklə "Klub işçisi-özfəaliyyət xor kollektivi rəhbəri", "Klub işçisi-özfəaliyyət xalq çalğı alətləri orkestri rəhbəri" ixtisası üzrə təhsil alanlar arasında qarmon ifaçıları əksəriyyət təşkil edirdi. Musiqi məktəbini bitirən qarmonçalanlar, həmcinin ustad sənətkar yanında və ya öz istedadı sayəsində sənət öyrənənlər orta ixtisas təhsili almaq istədikdə, naəlac qalır, tədris müəssisələrinə daxil ola bilmirdilər. Beləliklə 1980-ci ildə ilk dəfə Ağdam, Şəki və Gəncə Musiqi Texnikumlarında qarmon sinifləri açılana qədər Bakı Mədəni-Maarif Texnikumunun məzunları olan qarmon ifaçıları ixtisas üzrə kadr sayılaraq uşaq musiqi məktəblərində, mədəniyyət evləri və saraylarındakı kurslarda, uşaq və gənclərin yaradıcılıq mərkəzlərindəki qarmon dərnəklərində dərs demişlər. Həmin məzunların çoxu elə indiyə qədər Bakı və əyalət uşaq musiqi və incəsənət məktəblərinin qarmon siniflərinin müəllimləridirlər.

1960-1970-ci illərdə Bakı Mədəni-Maarif Texnikumunun qarmon müəllimləri Əyyub Babayev, Telman Musəvi, Kamil Cəlilov, Tofiq Məmmədov, Firudun Hüseynzadə, Abutalıb Sadıqov, Vahid Axundlu, Novruzəli Əliyev, Bəxtiyar Nurməmmədov, Aydın Cananov, Əlbala Ağayev, Çingiz Maqsudov, Zümrüd Həbibova və digərləri olmuşdur. 1977-ci ildə Ç. Maqsudov, Ə. Ağayev və B. Nurməmmədov texnikumun qarmon tədrisi üçün not proqramını hazırlayaraq tətbiq etmişlər. Bu müəllimlərin əksəriyyəti dərs dedikləri texnikumun məzunları olublar.

Təhsil Nazirliyinin qərarına əsasən 1980-ci ildə Ağdam, Gəncə və Şəki, 1982-ci ildə Şuşa, Naxçıvan, 1984-cü ildə Sumqayıt, 1987-ci ildə Lənkəran və 1995-ci ildə A. Zeynallı adına Musiqi Texnikumunda qarmon sinfi açılmışdır. Belə təhsil ocaqlarında qarmon sinifləri üzrə təhsilli, not savadı yüksək olan müəllimlər dərs demişdir. Bu gün də belədir. Müəllimlərin hazırladıqları proqram və tədris vəsaitləri, "Qarmon məktəbi" kitabları Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş və qarmon ixtisası tədrisini təmin etmişdir.

Texnikumları (hazırda kolleclər) qarmon üzrə bitirən gənclər ixtisaslı kadrlar kimi respublikamızdakı uşaq musiqi və incəsənət məktəblərinin, kolleclərin qarmon siniflərində çalışırlar.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Musiqi sənəti" fakültəsinin "Xalq çalğı alətləri orkestri rəhbəri" və "İnstrumental ifaçılıq" ixtisasları üzrə 1999-cu ildə ilk dəfə qarmon üzrə orta ixtisas təhsilli və ya uşaq musiqi məktəblərini və orta məktəbləri bitirən gənclər qəbul olunmuşdur. Ali təhsil ocağında qarmon ixtisası üzrə kadrların yetişdirilməsi hazırda da davam edir və bu ifaçılıq sənətinin daha da inkişaf etməsinə təminat yaradır. Buranı bitirən gənclər ixtisaslı kadr olaraq musiqi tədrisi müəssisələrinin qarmon siniflərində dərs deyirlər. İrəliyə doğru daha bir uğurlu addım atılmışdır. 2016-cı ildən Milli Konservatoriya və Mədəniyyət və İncəsənət Universitetində yeni açılmış musiqi müəllimi ixtisasına qəbul zamanı orta ixtisas məktəblərini bitirən qarmon ifaçıları da qəbul olunublar.

Azərbaycanda qarmon ixtisasının tədrisi ildən-ilə inkişaf edərək yüksək vüsət almış və yeni mərhələyə qədəm qoymuşdur. Görülən işlərin, aparılan təcrübələrin, yazılıb, hazırlanıb təsdiq olunmuş proqramların, tədris vəsaitləri və dərsliklərin düzgün istifadəsinin nəticəsi olaraq və qarmon ixtisasının tədrisi böyük uğurlara gətirib çıxararaq gələcək böyük nailiyyətlərin əsası qoyuldu.

**"Nəticə"**də qarmonun Azərbaycan xalq çalğı alətləri sırasında özünü təsdiq etməsi, peşəkar musiqimizdəki rolu, onun bütün janrlarda, ən çətin musiqi əsərlərində, hətta simfonik orkestr tərkibində səslənə bilməsi və bir sıra digər məsələlər şərh edilir.

**Dissertasiyanın əsas məzmun və müddəaları müəllifin aşağıda çap olunmuş məqalələrində və tezisdə əksini tapmışdır:**


1. Muğamlarımız qarmon ifaçılığında. // "Mədəni həyat" jurnalı №6 (280), Bakı, 2014, s.18-21

2. Azərbaycan xalq musiqisinin və milli qarmon ifaçılığı sənətinin inkişafında Teyyub Dəmirovun rolu. // "Müasir mədəniyyətşünaslıq" jurnalı №1(15), Bakı, 2014, s.42-49

3. Qarmonun tədrisi üçün. // "Mədəni həyat jurnalı" jurnalı №2 (12), Bakı, 2014, s.25-28

4. Ustad qarmon ifaçısı Teyyub Dəmirovun Azərbaycan xanəndələri ilə yaradıcılıq əlaqələri. // Konservatoriya jurnalı №4 (26) , Bakı, MBM, 2014, s.64-66

5. Zakir Mirzə "Uşaq vaxtı əlimə qarmon alan kimi "Heyvagülü" çalmışam". //"Qobustan" (sənət toplusu) № 3 , Bakı, 2014, s. 56-60

6. Məmmədağa Ağayev öz qarmonuyla toylar yaraşığı idi. // "Qobustan " (sənət toplusu), 3 (168), Bakı, 2015, s.47-48

7. Aşıq dəstələrində qarmon ifaçılarının rolu. // “Mədəniyyət.Az” jurnalı № 6 (292), Bakı, 2015, s.94-97

8. Müxtəlif tərkibli instrumental ansambllarda qarmon alətinin rolu. / Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. XIV Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, 2015, s.39-47

9. Богатое и образцовое искусство Закира. // «Sanat» №4, Журнал Академии Художеств Узбекистана, 2015, с.36-37

10. XX əsrdə yaranmış musiqi üçlüyü. // “Konservatoriya” jurnalı №1(27), Bakı, MBM, 2015, s.82-87

11. O, öz fənnini sevdirərdi. // “Azərbaycan məktəbi” jurnalı № 6 (670), Bakı, 2015, s.107-109

12. Bir çox müğənni və aşıqların qarmon sənətində izi. // “Mədəniyyət.Az” jurnalı № 12 (298), Bakı, 2015, s.81-83

13. Tofiq Bakıxanov musiqisində qarmon. T.Bakıxanovun 85 illiyinə həsr olunmuş elmi-praktik konfrans, Bakı, 2015, Mütərcim, s. 73-77.

14. Взгляд на путь развития гармони в Азервайджане. / Интернаука (интернаука.орг), научная дискуссия: вопросы филологии, искусствоведения и культурологии, сборник статей по материалам XXXIX международной заочной научно-практической конференции №8 (36), Москва, август 2015 г. с.7-14

15. Rich And Exemplary Art by Zakir. // San at. Journal of the academy of arts of Uzbekistan № 69 4/ 2015, 36-37

16. Tarzən xanəndələr. / Türksoylu xalqların musiqi mədəniyyətinin problemləri. XV Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, 2016, s.46-53

17. Müğənnilərin yetişib püxtələşməsində Əhsən Dadaşovun rolu. // “Konservatoriya” jurnalı, Bakı, Ecoprint, 2016, s.24-30

18. Muğam tədris edilən təhsil müəssisələri üçün vəsait. Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Humanitar Kolleci, Bakı Ecoprint, 2016, 64 s.

19. Milli rəqs sənətimizin nadir incisi. Mədəniyyət.AZ.jurnalı №12 (310) Bakı, 2016, s. 57-59.

20. Qarmon sənətinin fenomeni. // “Mədəniyyət.Az” jurnalı. №1(311), Bakı, 2017, s.76-78

21. Üzeyir Hacıbəylinin qarmon sənətinə münasibəti. Konservatoriya jurnalı №1 (35), Bakı, Ecoprint, 2017, s. 45-49.

22. Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının keçdiyi yola bir nəzər. Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri XVI Beynəlxalq elmi-praktiki konfrans, Bakı, 2017, s. 51-60.

**Ахсан Микаиль оглы Рахманлы**

# ИСПОЛНИТЕЛЬСКОЕ ИСКУССТВО И ОБУЧЕНИЕ ИГРЫ НА ГАРМОНЕ В АЗЕРБАЙДЖАНЕ

## Резюме

Диссертация состоит из введения и четырех глав. В I главе рассказывается о приведении гармони в Азербайджан, а далее в соответствии с потребностью о создании азербайджанской гармони, о ее характерных особенностях и использовании. Здесь говорится о позиции, которую занимает гармонь в народной музыке и ее значении.

Во II главе рассказывается о создании, формировании и развитии школы азербайджанской гармони. Также подчеркивается что, образцовый творческий путь Ахада Алиева, его приемы исполнения являются настоящей школой для его последователей.

В III главе, охватывающей 4 раздела, рассказывается о роли гармони в вокально-инструментальном исполнении. Особое место отводится особенностям звучания гармони в исполнении народных песен, ашугских мелодий и исполнении мугама, танцевальных мелодий, фольклорных примеров, в исполнении произведений азербайджанских и зарубежных композиторов, даже в музыке кино.

В IV главе, посвященной вопросам преподавания азербайджанской гармони, рассказывается о развитии гармони, которая первоначально развивалась индивидуальными обучениями любителей мастеров искусства в домах, затем в дальнейшем поэтапно преподавалась в музыкальных школах, техникумах (в настоящее время колледжах), в Университете Культуры и Искусства, в Национальной Консерватории и рассказывается о достижении своего подъема.

В заключении результат диссертационной работы полностью находит свое отражение, затрагиваются ряд вопросов для достижения перспективных работ и целей

**Ahsan Mikayil Rahmanli**

# THE ART OF PLAYING ACCORDION ART IN AZERBAIJAN AND ITS TEACHING

## Summary

Thesis consists of introduction  and four sections. The first chapter is about occurrence of  bringing accordion to Azerbaijan, and the use of specific features. There is mentioned that role of the issues touched accordion folk music.

The second chapter is about the emergence of the accordion school, refers to the formation and development. It is noted that Ahad of art exemplary way, performance rules the school for his followers,

The third chapter is delivered in four sections is about the role of vocal and instrumental performing accordion. Accordion`s  folk songs, Ashig songs and mugam performance, dance tunes, folklore samples, Azerbaijan and performance of works by foreign composers, folk music and even movies are given the nature of the music.

The fourth chapter is devoted to teaching the accordion at first to teach the rules of the house through individually developed accordion masters the art of singing amateurs and later stages deals with, music schools, colleges (now in college), and taught at the University of Culture and Art is about finding the rise.

Finally, the conclusion of the dissertation is fully reflected, and a number of issues are addressed to achieve the desired outcome and purpose in the future.

Çapa imzalanıb: 17.07.2017.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКАЯ МУЗЫКАЛЬНАЯ АКАДЕМИЯ**
**имени УЗЕИРА ГАДЖИБЕЙЛИ**

*На правах рукописи*

**АХСАН МИКАИЛ оглы РАХМАНЛЫ**

# ИСПОЛНИТЕЛЬСКОЕ ИСКУССТВО И ОБУЧЕНИЕ ИГРЫ НА ГАРМОНЕ В АЗЕРБАЙДЖАНЕ

6213.01 – Музыкальное искусство

**АВТОРЕФЕРАТ**

диссертации на соискание ученой степени
доктора философии по искусствоведению

**Баку – 2017**